

**Mən fəxr edirəm ki, Bakı Dövlət Universitetinin məzunuyam...**
*Ümummilli Lider HEYDƏR ƏLİYEV*

Qəzet 1929-cu ildən nəşr olunur. Təsisçi: Bakı Dövlət Universiteti | 30 aprel 2021-ci il

# BAKI UNİVERSİTETİ

MİLLİ TƏRƏQQİ ELM VƏ TƏHSİL OCAĞINDAN BAŞLAYIR


**BDU və Cənubi Bohemia Universiteti arasında əməkdaşlıq müqaviləsi imzalanıb** →Səh.2

**BDU Elmi Şurasının növbəti iclası keçirilib** →Səh.2

**Azərbaycan Respublikası Baş Prokurorluğu və Bakı Dövlət Universiteti arasında əməkdaşlığa dair müqavilə imzalanıb** →Səh.3

**BDU-da Erasmus+ mübadilə proqramı çərçivəsində ilk görüş** →Səh.6

**"Aprel döyüşləri - Böyük Qələbənin başlanğıcı" mövzusunda dəyirmi masa** →Səh.6

**Jurnalistika fakültəsində "Molla Nəsrəddin" jurnalının 115 illiyi münasibətilə dəyirmi masa keçirilib** →Səh.11





**Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr edilmiş Beynəlxalq elmi konfrans keçirilib** →Səh.2





**Özbəkistan səfiri BDU-da olub** →Səh.2





**BDU Azərbaycan Notariat Palatası ilə əməkdaşlıq edəcək** →Səh.2





**BDU-nun Elmi kitabxanasına kitablar hədiyyə edilib** →Səh.10





**Azərbaycan Dövlət Neft Akademiyasında törədilmiş faciədən 12 il ötür** →Səh.14




## Akademik Zərifə xanım Əliyevanın əziz xatirəsinə

### 15 aprel dünya şöhrətli oftalmoloq-alim Zərifə xanım Əliyevanın əbədiyyətə qovuşmasından 36 il ötür

*1947-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunu bitirən Zərifə xanım Əliyeva Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda elmi işçi, Həkimləri Təkmilləşdirmə İnstitutunda Göz xəstəlikləri kafedrasının dosenti, Görmə orqanlarının peşə patologiyası laboratoriyasının müdiri, Oftalmologiya kafedrasının müdiri vəzifələrində çalışıb.*

Zərifə Əliyevanın Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri vardır. O, vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatların, o cümlədən "Terapevtik oftalmologiya", "İridodiaqnostikanın əsasları" kimi nadir elmi əsərlərin müəlliflərindən biri, 12 monoqrafiya, dərslik və dərs vəsaitinin, 150-yə yaxın elmi işin, 1 ixtira və 12 səmərələşdirici təklifin müəllifidir.

Akademik Zərifə Əliyeva Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti Rəyasət Heyətinin, Sovet Sülhü Müdafiə Komitəsinin, Azərbaycan Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin, "Vestnik oftalmoloq" (Moskva) jurnalının redaksiya heyətinin üzvü olmuşdur.

Yüksək elmi nailiyyətlərinə görə Z.Əliyeva 1980-ci ildə Azərbaycan əməkdar elm xadimi, 1981-ci ildə isə SSRİ Tibb Elmlər Akademiyasının M.İ.Averbax adına mükafatına layiq görülmüş ilk qadındır.

Azərbaycanda Tibbi deontologiyanın inkişafında böyük rolu olan akademik Zərifə Əliyevanın tibbi etika və deontologiyaya dair baxışları "Yüksək əqidə" (həkimlik etikası) əsərində əks olunmuşdur.

Z.Əliyeva yüksəkixtisaslı səhiyyə kadrların hazırlanmasına böyük əmək sərf etmişdir. Onun birbaşa rəhbərliyi ilə gənc alimlərin və həkim-oftalmoloqların böyük bir nəsli yetişmişdir.

Akademik Zərifə xanım Əliyeva irsi həm bu günümüz, həm də gələcəyimiz üçün təkrarsız bir örnəkdir.

Dərin ehtiramla anır və Allahdan rəhmət diləyirik.




*BDU-da ağacəkmə aksiyası keçirilib*

# Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr edilmiş "Hüquq elminin müasir problemləri" mövzusunda Beynəlxalq elmi konfrans keçirilib

***Hüquq fakültəsinin Dövlət və hüquq nəzəriyyəsi və tarixi və Konstitusiya hüququ kafedralarının birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr edilmiş "Hüquq elminin müasir problemləri" mövzusunda onlayn Beynəlxalq elmi konfrans keçirilib.***



Konfransın moderatoru Milli Məclisin üzvü, professor Ziyafət Əsgərov mütəmadi keçirilən elmi tədbirlər, bu tədbirlərin hüquq elminin inkişafına verdiyi töhfələrdən söz açıb.

Konfransda çıxış edən BDU-nun rektoru Elçin Babayev COVID-19 pandemiyasının təhsilə, eyni zamanda, elmi tədqiqatların aparılmasına təsirindən danışaraq müasir dünyada elm və texnologiya sahəsində baş verən inkişafın yeni təhsil ehtiyacları yaratmaqla yanaşı, müasir təhsil tətbiqlərinə yeni imkanlar açdığına diqqət çəkib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə demokratik və hüquqi dövlət quruculuğu istiqamətində görülən işlərdən bəhs edən rektor əlavə edib ki, BDU-nun Hüquq fakültəsi fəaliyyət göstərdiyi müddətdə minlərlə yüksəkixtisaslı hüquqşünas kadr yetişdirərək respublikanın hüquq-mühafizə orqanlarını, dövlət və hökumət təşkilatlarını hüquqşünas kadrlarla təmin edib. Hüquq fakültəsi respublikada hüquq elminin inkişafında və hüquq üzrə elmi-pedaqoji kadrların hazırlanmasında əsas aparıcı mərkəzdir.

Hüquq fakültəsinin dekanı, professor Əmir Əliyev son illər Hüquq fakültəsində nəşr olunan nüfuzlu elmi jurnalların sayının artması, o cümlədən elmi tədqiqatlarda əldə edilən uğurlardan bəhs edərək məruzəçilərə və magistrant-tələbələrə konfransın işində aktiv iştiraklarına görə təşəkkür edib.

Konfransda Dövlət və hüquq nəzəriyyəsi və tarixi kafedrasının müdiri, AMEA-nın müxbir üzvü, hüquq elməri doktoru, professor Məsumə Məlikova, Ankara Univeristetinin Hüquq fakültəsinin professoru Erkan Akdoğan, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev, O.E.Kutafin adına Moskva Dövlət Hüquq Univeristetinin Dövlət və hüquq tarixi kafedrasının müdiri, professor, əməkdar elm xadimi İqor İsayev, Azərbaycan Respublikasının Milli Məclisinin Aparatının rəhbəri Səfa Mirzəyev, Ukrayna Milli Aviasiya Akademiyasının professoru Arif Quliyev, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hüquq ekspertizası şöbəsinin müdiri Şahin Əliyev, Rusiya Federasiyası Prezidenti yanında Rusiya Xalq Təsərrüfatı və Dövlət Qulluğu Akademiyasının Cənub filialının Hüquqi Tədqiqatlar Mərkəzinin direktoru, professor Damir Şapsuqov çıxış ediblər. Çıxışlarda məhkəmə işlərinin elektron idarəedilməsi, "Elektron məhkəmə" informasiya sisteminin tətbiqi, dövlətin əsas qanunu kimi konstitusiya anlayışı, Azərbaycan dövlətinin Konstitusiya statusu, məhkəmə hakimiyyətinin müstəqilliyi, hüquq və azadlıqların üstünlüyü prinsipi, insan və vətəndaşın hüquqi statusunun anlayışı və prinsipləri, insan və vətəndaşın əsas hüquq və azadlıqları: sosial-iqtisadi hüquqlar, yerli özünüidarəetmənin təminatlarının hüquqi əsasları, hüququn anlayışı – dövlət və hüququn qarşılıqlı əlaqəsi, hüquq münasibətləri, beynəlxalq iqtisadi hüququn dövlətdaxili hüquq ilə qarşılıqlı əlaqəsi, insan və vətəndaş hüquq və azadlıqlarının həyata keçirilməsinin hüquqi tənzimlənməsi, fərdi məlumatların məxfiliyinin təmin edilməsi, elektron hökümətin hüquqi əsasları kimi mövzulardan bəhs olunub.

# BDU Elmi Şurasının növbəti iclası keçirilib

***Aprelin 23-də Bakı Dövlət Universitetinin Elmi Şurasının növbəti onlayn iclası keçirilib.*** İclasda BDU-nun 2020-ci ildə yerinə yetirilmiş elmi-tədqiqat işlərinin nəticələrinin hesabatı dinlənilib. Elm və innovasiyalar üzrə prorektor Hüseyn Məmmədov BDU-da yerinə yetirilmiş elmi-tədqiqat işləri, müxtəlif elmi istiqamətlər üzrə aparılmış fundamental və tətbiqi xarakterli tədqiqatlar haqqında məlumat verib.



Hesabatda Universitet fakültələrinin və elmi-tədqiqat institut, mərkəz və laboratoriyalarının strukturu, kadrların elmi potensialı, əməkdaşların elmi nəşrləri və elmi tədbirlərdə iştirakı, elmi-tədqiqat işlərinin səmərəliliyi, elmi tədqiqatların nəticələrinin tədris prosesində və istehsalatda tətbiqi, qrantlar əsasında yerinə yetirilən elmi-tədqiqat işləri və s. barədə ətraflı məlumat verilib.

Daha sonra iclas cari məsələlərin müzakirəsi ilə davam edib.

# BDU və Cənubi Bohemia Universiteti arasında əməkdaşlıq müqaviləsi imzalanıb

***Aprelin 14-də Bakı Dövlət Universiteti və Çex Respublikasının Cənubi Bohemia Universiteti arasında əməkdaşlıq müqaviləsi imzalanıb.***

Görüşdə BDU-nun rektoru Elçin Babayev, elm və innovasiyalar üzrə prorektor Hüseyn Məmmədov, Beynəlxalq əlaqələr şöbəsinin müdiri Rauf Həsənov, Biomühəndislik elmi-tədqiqat laboratoriyasının müdiri Ralfrid Həsənov, Botanika və bitki fiziologiyası kafedrasının müdiri Elşad Qurbanov, Biologiya fakültəsinin dekan müavini Səbinə Ömərova, Cənubi Bohemia Universitetinin rektoru Bohumil Jirousek və beynəlxalq əlaqələr üzrə prorektoru Radka Zavodska iştirak ediblər.

Görüş zamanı universitetlər arasında elm və təhsil sahələri üzrə birgə fəaliyyətin perspektivləri haqqında fikir mübadiləsi aparılıb.

Rektor Elçin Babayev bildirib ki, hazırda BDU-nun Biologiya fakültəsində 12 tədris laboratoriyası və 2 elmi-tədqiqat laboratoriyası fəaliyyət göstərir. Fakültədə parazitologiya, infeksiyalar biologiyası, biokimya, hidrobiologiya və hüceyrə biologiyası sahələri üzrə aparılan elmi tədqiqatlar haqqında məlumat verərək, bu istiqamətlərdə elmi-tədqiqat, kadr hazırlığı, elmi-tədqiqat layihələri və proqramlarda birgə iştirakın mümkünlüyünü bildirib.

Daha sonra çıxış edən Cənubi Bohemia Universitetinin rektoru Bohumil Jirousek bu müqavilənin universitetlər arasında gələcək əməkdaşlıq üçün əhəmiyyətli rol oynayacağını bildirib: "BDU Azərbaycanın ən qədim təhsil ocağıdır, Cənubi Bohemia isə çox gənc universitetdir. Əminəm ki, qeyd olunan sahələrdə hər iki universitetin təcrübələrinə əsaslanaraq uğurlu layihələr həyata keçirilə bilər".

Görüş zamanı Bakı Dövlət Universiteti ilə Cənubi Bohemia Universiteti arasında magistratura və doktorantura təhsil səviyyələri üzrə mübadilə və ikili diplom proqramları, birgə müsabiqələr, kadr hazırlığı, elmi-tədqiqat layihələri, elmi simpozium, seminar, konfrans, ixtisasartırma kursları və tədris planlarının təşkili istiqamətlərində əməkdaşlığın həyata keçirilməsi barədə razılıq əldə olunub.

# Özbəkistan səfiri BDU-da olub

***Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev Özbəkistanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Bəhrom Əşrəfxanov ilə görüşüb.***



Rektor xalqlarımız arasında qədim tarixə malik dostluq və qardaşlıq əlaqələrinin bu gün dövlətlərimiz arasında uğurla davam etdiyini bildirib. 44 günlük Vətən müharibəsində Ali Baş Komandanımızın rəhbərliyi altında müzəffər ordumuzun əzəli torpaqlarımızı işğaldan azad etməsinin qürurunu yaşadığımızı qeyd edən rektor Qarabağda quruculuq işlərində Özbəkistanın da iştirak etmək istəyinin iki ölkə arasında dostluq və qardaşlıq bağlarının təzahürü olduğunu bildirib.

BDU-nun Özbəkistanın nüfuzlu elm və təhsil müəssisələri ilə sıx əlaqələr qurduğunu, Daşkənd Dövlət Şərqşünaslıq Universiteti ilə BDU arasında bağlanılmış müqavilə çərçivəsində həyata keçirilən tədbirlər, mübadilə proqramları, ikili və üçlü diplom layihələri haqqında məlumat verib. Gələcəkdə Səmərqənd Dövlət Universiteti, Buxara Dövlət Universiteti kimi ali təhsil müəssisələri ilə BDU-nun daha sıx əməkdaşlıq etməsi istiqamətində təkliflərlə çıxış edib.

Görüşə görə BDU rəhbərliyinə təşəkkürünü bildirən səfir Bəhrom Əşrəfxanov təklifləri müsbət dəyərləndirib, qarşılıqlı münasibətlərin daha yüksək səviyyəyə qaldırılması, Özbəkistan ali məktəbləri ilə BDU-nun daha sıx və səmərəli, qarşılıqlı faydalı əlaqələr qurması üçün səfirliyin bütün zəruri tədbirləri görəcəyini vurğulayıb.

Görüş BDU və Özbəkistan ali məktəbləri arasında təhsil sahəsində əlaqələrin gələcək əməkdaşlıq perspektivləri, iki ölkənin ali təhsil müəssisələri arasında müəllim-tələbə mübadiləsi, elm, tədris və digər sahələr üzrə əməkdaşlıq ilə bağlı fikir mübadiləsi ilə davam edib, gələcək perspektivlər müzakirə olunub.

# Azərbaycan Respublikası Baş Prokurorluğu və Bakı Dövlət Universiteti arasında əməkdaşlığa dair müqavilə imzalanıb

*Azərbaycan Respublikası Prokurorluğu orqanları ilə ölkənin aparıcı ali təhsil müəssisələri arasında fəal əməkdaşlıq əlaqələrinin daha da inkişaf etdirilməsi, peşə hazırlığı və tədrisin təşkili sahəsində qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsi istiqamətində mühüm və ardıcıl tədbirlər davam etdirilir.*

Həmin tədbirlərin davamı olaraq, 5 aprel 2021-ci il tarixdə Bakı Dövlət Universitetinin rektoru Elçin Babayevin rəhbərlik etdiyi nümayəndə heyəti Baş Prokurorluğun Elm-Tədris Mərkəzində olmuşdur.

İlkin olaraq qonaqlar Baş Prokurorluğun yeni istifadəyə verilmiş inzibati binalar kompleksi, o cümlədən Vətən müharibəsinə həsr olunmuş tarixi-memorial qalereya, mühazirə, praktiki məşğələlər və iclas zalları, kitabxana, kriminalistika və istintaq otaqları ilə tanış olmuşlar.



Tədbir çərçivəsində rektor Elçin Babayevlə Baş prokurorun müavini Elmar Camalov arasında görüş keçirilmiş, görüşdə BDU-nun Hüquq fakültəsinin dekanı Əmir Əliyev, Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin rəisi Mübariz Əhmədov, Mətbuat xidmətinin rəhbəri Günay Səlimzadə, Elm-Tədris Mərkəzinin şöbə rəisi Ramin Camalov, böyük prokuroru Nigar Qələndərli iştirak ediblər.

Görüşdə iki qurum üçün olduqca faydalı olan qarşılıqlı əməkdaşlıq istiqamətləri müzakirə edilmiş, gənc hüquqşünasların peşə hazırlığının təşkil edilməsi istiqamətində səylərin birləşdirilməsi qərara alınıb.

Azərbaycan Respublikasının Baş prokuroru yanında məşvərətçi orqan olan Elmi-Məsləhət Şurasının fəaliyyətində Bakı Dövlət Universiteti nümayəndəsinin səmərəli fəaliyyəti xüsusi olaraq qeyd edilib.

Görüşün nəticələrinə uyğun olaraq, Azərbaycan Respublikasının Baş Prokurorluğu və Bakı Dövlət Universiteti arasında əməkdaşlığa dair müqavilə imzalanıb.

Müqavilə birgə elmi konfransların, dəyirmi masaların və görüşlərin keçirilməsi, elmi məqalələrin, vəsaitlərin və mətbu nəşrlərin hazırlanması, hüquq tətbiqi fəaliyyətdə daha çox rast gəlinən problemlərin həlli məqsədilə birgə elmi-praktiki araşdırmaların aparılması və sair məsələlər üzrə geniş və səmərəli əməkdaşlığı əhatə edir.

Baş Prokurorluqla Bakı Dövlət Universiteti arasında imzalanmış müqavilə gənc hüquqşünasların hazırlanmasına da mühüm töhfə verəcəkdir.

# BDU Azərbaycan Notariat Palatası ilə əməkdaşlıq edəcək

*Aprelin 8-də Bakı Dövlət Universiteti və Azərbaycan Notariat Palatası arasında əməkdaşlıq müqaviləsi imzalanıb. Müqaviləni BDU-nun rektoru Elçin Babayev və Azərbaycan Notariat Palatasının sədri Hüseyn Məmmədov imzalayıblar.*

BDU-nun rektoru Elçin Babayev çıxış edərək Universitetlə Azərbaycan Notariat Palatası arasında əməkdaşlığın perspektivlərinin əhəmiyyətini vurğulayaraq, hüquqşünas kadrların yetişdirilməsində təcrübə mübadiləsi, birgə layihələrin həyata keçirilməsi, notariat sahəsində ixtisaslı kadrların Universitetin tədris fəaliyyətinə cəlb edilməsi və digər məsələlər barəsində danışıb.





Notariat Palatasının sədri Hüseyn Məmmədov son dövrlərdə ölkədə notariat sahəsində aparılan islahatlardan bəhs edib. O, qeyd edib ki, ötən dövrdə notariat sahəsində mütərəqqi beynəlxalq təcrübə öyrənilməklə qanunvericilik təkmilləşdirilib, şəffaf prosedurlar əsasında yeni notariat korpusu formalaşdırılıb. Xüsusi notariat institutu geniş tətbiq olunub, notariat ofislərini vahid şəbəkədə birləşdirən "Elektron notariat" informasiya sistemi istifadəyə verilməklə notariat hərəkətlərinin rəsmiləşdirilməsi xeyli sadələşdirilib. Palata sədri çıxışında bu istiqamətdə Bakı Dövlət Universiteti ilə gələcək əməkdaşlığın faydalı nəticələr verəcəyinə əminliyini ifadə edib.

Qeyd edək ki, müqavilə tərəflər arasında əməkdaşlığın inkişaf etdirilməsini, hüquq fakültəsi tələbələrinin notariat orqanlarında təcrübə keçməsinə şərait yaratmaq, notarial təcrübənin artırılması ilə bağlı birgə layihələr, konfranslar, simpozium və s. tədbirlərin həyata keçirilməsini nəzərdə tutur.

Görüşdə BDU-nun prorektoru Əliş Ağamirzəyev, BDU-nun Hüquq fakültəsinin dekanı Əmir Əliyev, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Qeydiyyat və Notariat Baş İdarəsinin baş məsləhətçisi Vidadi Mayıl, Bakı şəhər 11 saylı Notariat ofisinin notariusu İlqar Məmmədov iştirak ediblər.

# BDU və Azərbaycan Vəkillər Kollegiyası arasında əməkdaşlıq müqaviləsi imzalanıb

*Bakı Dövlət Universiteti və Azərbaycan Respublikasının Vəkillər Kollegiyası arasında hüquq təhsili və təcrübəsinin sıx inteqrasiyasının təmin edilməsi, hüquq tələbələri və məzunlarının təhsil keyfiyyətinin və peşə fəaliyyətinin yaxşılaşdırılması məqsədilə birgə əməkdaşlıq haqqında müqavilə imzalanmışdır. Müqaviləni Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev və Azərbaycan Vəkillər Kollegiyasının sədri Anar Bağırov imzalayıblar.*

Aprelin 2-də keçirilən görüşdə çıxış edən BDU-nun rektoru Elçin Babayev Universitetlə Vəkillər Kollegiyası arasında əməkdaşlığın gələcək perspektivlərinin əhəmiyyətini vurğulayaraq, Universitetdə tələbələr üçün təcrübə proqramlarının təşkili, akademik sahədə püxtələşmiş vəkillərin Universitetin tədris fəaliyyətinə cəlb edilməsi və digər maraq kəsb edən məsələlər barəsində danışıb.

Vəkillər Kollegiyasının sədri Anar Bağırov təqdimatla çıxış edərək son dövrlərdə vəkilliyin inkişafı və Kollegiyanın fəaliyyəti barədə məlumat verib. Anar Bağırov Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 fevral tarixli “Azərbaycan Respublikasında vəkilliyin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında” Sərəncamı və 2019-cu il 3 aprel tarixli "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi" haqqında Fərmanının əhəmiyyətini vurğulayaraq, ölkəmizdə vəkillərin sayının iki dəfədən çox artaraq 2000 nəfərədək, vəkil qurumlarının sayının isə 39-dan 101-dək artırılması, vəkillərin fəaliyyətində elektron texnologiyalardan istifadə imkanlarının genişləndirilməsini qeyd edib.




İmzalanmış müqavilə tərəflər arasında əməkdaşlıq münasibətlərini tənzimləyir. Müqavilə Hüquq fakültəsinin tələbələrini hüquq ixtisası üzrə təcrübəyə cəlb etmək, Bakı Dövlət Universitetinin strukturları tərəfindən irəli sürülən layihələrə birgə dəstəyin verilməsi, Hüquq fakültəsinin təhsildə fərqlənən tələbələrinə təqaüdlərin müəyyən edilməsi və verilməsi, hüquq təcrübəsinin artırılması ilə bağlı layihələr, konfranslar, simpoziumlar, “moot court”lar və s. tədbirlərin təşkilinin həyata keçirilməsi və s. məsələləri əhatə edir.

Müqavilədə tərəflərin əməkdaşlığın xüsusi bir forması kimi Bakı Dövlət Universitetinin Azərbaycan Respublikasının Vəkillər Kollegiyasının üzvü olan professor-müəllim heyətindən ibarət Vəkil Bürosunun yaradılması da öz əksini tapır.

Tədbirin sonunda Vəkillər Kollegiyası tərəfindən Bakı Dövlət Universitetinin Elmi Kitabxanasına hüquq sahəsinə dair 200-ə yaxın kitab hədiyyə edilib.

# Elçin Babayev: Gənclərimiz elm və təhsilin davamlı inkişafının hərəkətverici qüvvəsidir

***Azərbaycan Respublikasında elmin və təhsilin inkişafı dövlətimizin çoxşaxəli və uğurlu siyasətinin əsas prioritetlərindən biridir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 9 aprel 2018-ci il tarixli sərəncamı ilə martın 27-si Azərbaycan Respublikasında Elm Günü elan olunmuşdur.***

Şübhəsiz ki, hər bir dövlətin davamlı inkişafı, iqtisadi, siyasi və hərbi qüdrəti təhsilin keyfiyyəti və səviyyəsi, həmçinin ölkənin elmi potensialı və bu sahələrdəki uğurları ilə bilavasitə bağlıdır. Yenidən müstəqillik əldə etdikdən sonra ölkəmizin davamlı inkişaf strategiyası, habelə müasir dünyada baş verən qlobal siyasi, iqtisadi, sosial və ekoloji problemlər Azərbaycanın elmi əsaslar üzərində inkişafını zərurətə çevirmişdir.

Müstəqilliyimizin bərpasından keçən 30 il ərzində dövlətin diqqət və qayğısı sayəsində ölkəmizdə elm və təhsil sahələri sürətlə inkişaf edib, bu istiqamətdə nailiyyətlər qazanılıb. Bu sahələrin inkişafı, yüksəkixtisaslı elmi və elmi-pedaqoji kadr hazırlığı, bütövlükdə, ölkəmizin hərtərəfli inkişafının hərəkətverici qüvvəsinə çevrilmişdir. Son illər ərzində ölkəmizdə milli maraqlara və bəşəri dəyərlərə əsaslanan müasir elm və təhsil sistemi formalaşmışdır.

Elm və təhsilin inkişafına dövlət səviyyəsində göstərilən qayğıya birbaşa olaraq dövlətçiliyimizin və müstəqilliyimizin möhkəmləndirilməsinə, xalqımızın tərəqqisinə və rifah halının yüksəldilməsinə xidmət edən məqsədyönlü siyasətin tərkib hissəsi kimi baxılmalıdır. UNESCO tərəfindən elm və təhsil əsri adlandırılmış və 4-cü sənaye inqilabının baş verdiyi XXI əsrdə elm, təhsil və sənayenin məharətlə əlaqələndirilməsi, bir-biri ilə inteqrasiya olunmuş şəkildə və müasir texnologiyalar və innovasiyaların tətbiqi yolu ilə inkişaf etdirilməsi ən aktual və prioritet məsələdir. Bu gün Azərbaycanda məhz bu istiqamətləri əhatə edən dövlət siyasəti aparılır, iqtisadi potensialı intellekt kapitalına çevirmək sahəsində mühüm və davamlı işlər görülür.

Müstəqillik əldə etdikdən sonra ölkəmizdə elm və təhsilin inkişafı müstəqil Azərbaycan Respublikasının memarı və qurucusu ümummilli lider Heydər Əliyevin adı ilə birbaşa bağlıdır. Ulu öndərin yenidən Azərbaycan rəhbərliyinə qayıdışından dərhal sonra elmə və alimlərə göstərdiyi xüsusi diqqət və qayğısı nəticəsində müşahidə edilən uzunmüddətli durğunluq inkişaf mərhələsi ilə əvəz olundu. Yüksəkixtisaslı kadrların hazırlanması, cəmiyyətdə müəllimlərin və alimlərin nüfuzunun artırılması sahəsində bir sıra mühüm qərarlar qəbul edildi, tədbirlər həyata keçirildi. "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı"nın təsdiq edilməsi haqqında ölkə başçısının 1999-cu il 15 iyun tarixli sərəncamı elm-təhsil sahəsində yaranmış problemlərin aradan qaldırılması və Azərbaycanın elm, təhsil və iqtisadi sahələr üzrə regionun lider dövlətinə çevrilməsi istiqamətində müstəsna əhəmiyyətə malik dövlət sənədi oldu.



***Ümummilli lider Heydər Əliyev elm və təhsilin ölkəmizin inkişafındakı rolundan danışarkən deyirdi: "Bu təhsil sisteminin nə qədər dəyərli olduğunu ondan görmək olar ki, Azərbaycanda yüksək savada, biliyə, ixtisasa, yüksək elmə malik insanlar var və onlar cəmiyyətin çox hissəsini təşkil edir. Əgər bunlar olmasaydı, Azərbaycanın iqtisadiyyatı belə güclü inkişaf edə bilməzdi. Bunlar olmasaydı, Azərbaycan elmi inkişaf edə bilməzdi.*** Bunlar olmasaydı, biz indi Azərbaycanı müstəqil dövlət kimi idarə edə bilməzdik. Onları qiymətləndirmək lazımdır və on illərlə əldə etdiyimiz nailiyyəti heç vaxt unutmamalıyıq". Ulu öndər elm və təhsil siyasətini daim prioritet olaraq önə çəkmiş, hər iki sahənin idarə edilməsində yeni yanaşmaların tətbiq edilməsini əsas vəzifələrdən biri hesab etmişdir.

Müstəqil Azərbaycanın qurucusu Heydər Əliyevin elm və təhsil sahəsində müəyyənləşdirdiyi siyasət bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən özünəməxsus kreativliklə və yeni çalarlarla zənginləşdirilməklə keyfiyyətcə yeni mərhələdə uğurla davam etdirilir. Ölkə başçısı tərəfindən bu istiqamətdə aparılan işlər Azərbaycan xalqının parlaq gələcəyinə xidmət edəcək səviyyədə peşəkarlıqla həyata keçirilir və gələcəyə daha böyük nikbinliklə baxmağa əsas verir. Əlbəttə ki, bütün bunların əsas meyarı elm və təhsilin inkişafının innovativ iqtisadi islahatlarla da uzlaşdırılmasıdır. Ölkə rəhbərinin müvafiq fərmanları ilə "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu və ilk dəfə olaraq "Elm haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvəyə minmişdir.

"Elm haqqında" Azərbaycan Respublikasının Qanunu ölkədə elmi fəaliyyətin təşkili, idarə edilməsi və inkişafı sahəsində dövlət siyasətinin əsas prinsiplərini, elmin və elmi-innovasiya fəaliyyətinin məqsədlərini, elmi fəaliyyət subyektlərinin hüquq və vəzifələrini, elmin maliyyələşdirilməsi mexanizmlərini, elmi nailiyyətlərin stimullaşdırılması və onlardan istifadənin təşkilati-hüquqi əsaslarını müəyyən edir. Bu qanun müstəqil dövlətimizin elm siyasətinin əsaslarını təşkil edir və bu sahənin inkişafı baxımından böyük önəmə malikdir.

Qanunun qarşıya qoyduğu əsas vəzifələr Azərbaycan alimlərinin cəmiyyətin inkişafında və bu istiqamətdə qarşıya çıxan problemlərin həllində rolunu artırmaq, ölkənin gələcək inkişafında iştirakını və məsuliyyətini yüksəltmək, həmçinin beynəlxalq aləmə inteqrasiyasını sürətləndirmək kimi vacib məsələlərdir. Qanun elmin inkişaf etdirilməsi, elmi məktəblərin yaradılması, elmi biliklərin yayılması və tanıdılması, elmi işçilərin əməyinin stimullaşdırılması, yaradıcı gənclərin elmi fəaliyyətə fəal cəlb edilməsi məqsədilə müxtəlif sosial həvəsləndirmə vasitə və mexanizmlərindən istifadə olunması, gənc alimlərin sosial müdafiəsinin yaxşılaşdırılması, doktorantura və magistraturanı müvəffəqiyyətlə bitirən gənc mütəxəssislərin müvafiq elmi vəzifəyə müsabiqədənkənar təyin olunması kimi əsas vəzifələri də qarşıya qoyur.

Son onilliklərdə ölkədə elmin davamlı inkişafının təmin edilməsi məqsədilə dövlət başçısının müvafiq fərman və sərəncamlarına əsasən, Gənclər Fondu və Elmin İnkişafı Fondu yaradılmış, Gənclər üçün Prezident Mükafatı, Elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Dövlət Mükafatları təsis edilmiş, Mərkəzi Elmi Kitabxananın və "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzinin yeni binaları müasir üslubda tikilib istifadəyə verilmiş, bir şox elm və təhsil qurumları əsaslı təmir edilmiş və ya yenidən qurulmuş, maddi-texniki təchizatı əhəmiyyətli dərəcədə yaxşılaşdırılmışdır. Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 4 may tarixli 255 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında 2009–2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiya" və "Azərbaycan Respublikasında 2009–2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiyanın həyata keçirilməsi ilə bağlı Dövlət Proqramı"nın icrası ilə bağlı görülmüş işlər, bütövlükdə, Azərbaycanda elmin inkişafına böyük təkan vermişdir.

**Azərbaycan dövlətinin elm, təhsil və gənclər siyasətinə ölkəmizin ali təhsil ocaqlarının flaqmanı olan Bakı Dövlət Universiteti də öz məxsusi töhfəsini verməkdədir. Universitet rəhbərliyi və professor-müəllim heyətinin ümdə məqsədi gənclərin savadlı, dərin bilikli və yüksək bacarıqlı, geniş dünyagörüşünə malik, vətənpərvər və dövlətçilik ənənələrinə sadiq vətəndaş kimi formalaşdırılması, Azərbaycanın parlaq gələcəyini təmin edə biləcək yüksəkixtisaslı peşəkar kadrlar yetişdirməklə ölkəmizin intellektual insan kapitalını zənginləşdirməkdir.**

Strategiya çərçivəsində elm sahəsində idarəetmə sisteminin və elmi infrastrukturun modernləşdirilməsi, elmi tədqiqatların prioritetlərinin ölkənin sosial-iqtisadi, elmi-mədəni problemlərinin həllinə, dünya elminin inkişaf istiqamətlərinə uyğun müəyyənləşdirilməsi, elmi-tədqiqat müəssisələrinin və bütövlükdə elmin maliyyələşdirilmə mexanizmlərinin təkmilləşdirilməsi, yüksəkixtisaslı kadrların hazırlanması, elmlə təhsilin inteqrasiyası, elmi işçilərin sosial təminatının yaxşılaşdırılması, elmin normativ-hüquqi bazasının və informasiya təminatının gücləndirilməsi, beynəlxalq elm məkanına inteqrasiya istiqamətində mühüm tədbirlər həyata keçirilmişdir.

***Elm və təhsilin davamlı inkişafı ölkədə gənclər siyasətinin düzgün qurulmasından da biləvasitə asılıdır. Çünki, müasir Azərbaycan gəncliyi digər sahələrlə yanaşı, elm və təhsilin də davamlı inkişafının, innovasiyaların tətbiqinin hərəkətverici qüvvəsi və gələcək üçün qarantıdır. Müstəqilliyimizin zəmanəti olan elm, təhsil və innovasiyalar - bilik, savad və müasirlikdir, gəncliyi gələcəyə aparan işıqlı yoldur. Prezident İlham Əliyev sosial-iqtisadi inkişafın yeni, məsuliyyətli və mürəkkəb mərhələsində ölkənin intellektual gələcəyini təmin etməyin yolunu məhz bu sahələrin rəqabətədavamlı inkişafında, onların müasir tələblər səviyyəsinə çatdırılmasında görür.*** Bu proseslərdə isə gənclərin böyük potensialından rasional istifadə olunmaqdadır. Azərbaycanın innovasiyaların tətbiqini nəzərdə tutan yeni xarakterli inkişaf strategiyası isə qlobal rəqabət şəraitində ölkənin elmi potensialının davamlı şəkildə yüksəldilməsini, gənc, yaradıcı, yüksək intellektual səviyyəli insanların istedadından rasional şəkildə istifadə olunmasını nəzərdə tutur.

Bu gün Azərbaycanda innovativ biliklərə və tətbiqlərə əsaslanan yeni texnologiyaların yaradılması, innovativ və rəqabət qabiliyyətli iqtisadiyyatın formalaşmasına, universitet və elmi-tədqiqat müəssisələrində elmi və innovativ proseslərin idarə olunmasına, prioritet istiqamətlərin düzgün və çevik olaraq müəyyənləşdirilməsinə, elmi nəticələrin kommersiyalaşdırılmasına, təhsilalanlarda, müəllim və alimlərdə yaradıcı və innovativ yönümlü düşüncənin inkişaf etdirilməsinə xüsusi diqqət verilir, uyğun şərait yaradılır. Elə bu səbəbdəndir ki, bu gün Azərbaycan dünyada sürətlə inkişaf edən və modernləşən dövlət kimi tanınır və qəbul edilir, beynəlxalq indekslər üzrə sıralamada inamla irəliləyir.

Dövlətimizin başçısının qarşıya qoyduğu ən mühüm vəzifələr sırasında sosial-iqtisadi inkişafın innovativ və kreativ vasitələrlə sürətləndirilməsi də mühüm yer tutur. İnnovasiya proseslərinin intensivliyinin artırılması hazırda qlobal iqtisadi sistemdə baş verən dəyişikliklərin mühüm istiqamətlərindəndir. Bu mənada, tədqiqat və sənaye qurumları ilə əməkdaşlıq edən və innovativ inkişaf sisteminə malik təhsil müəssisələri cəmiyyətimizin təhsil və elm sahəsində yüksəkixtisaslı kadrlara olan ehtiyacını təmin etməklə yanaşı, "sosial ehtiyacların ödənilməsi" missiyasını da öz üzərlərinə götürür. Əlbəttə ki, bu missiyanın yerinə yetirilməsində əlverişli "öyrənmə-öyrətmə" mühiti ilə yanaşı, çevik qərarlar qəbul edə bilən istedadlı mütəxəssislərin, xüsusilə də, gənc nəslin də olması vacibdir. Məhz belə təhsil müəssisələrində elmi araşdırmalar və innovasiyalar təhsil prosesinin ayrılmaz tərkib hissəsinə çevrilir, əmək bazarında rəqabətədavamlı yüksəkixtisaslı mütəxəssislər hazırlanır, nəticəsi nüfuzlu elmi nəşrlərdə dərc olunan və prioritet istiqamətlərdə elmi tədqiqatlar aparılır və patentlərin lisenziyalaşdırılması yolu ilə elmi tədqiqat yönümlü yeni texnologiyaların inkişafına mühüm töhfə verilir.

Azərbaycan gəncləri hər zaman dövlətimizin diqqət mərkəzindədir və onların hərtərəfli inkişafı ölkəmizin sosial-iqtisadi və elmi-mədəni inkişafı ilə sıx əlaqədədir.

***Yetişməkdə olan gənc nəslin öz bilik, savad və bacarıqlarının, böyük potensialının effektli reallaşdırılmasını, cəmiyyətdə özünə layiqli yer tutmasını və xidmətini təmin edən şəraitin yaradılması məqsədilə dövlətin gənclər siyasətinin tərkib hissəsi kimi prioritetlər müəyyənləşdirilmiş və kompleks tədbirlər mütəmadi olaraq həyata keçirilməkdədir.***

Son illər ölkənin ictimai-siyasi, elmi-mədəni həyatında gənclərin fəal iştirakı, yeni tələbə və gənclər təşkilatlarının formalaşması və onların inkişafı üçün hər cür şəraitin yaradılması, gənclərin sosial problemlərinin həlli, beynəlxalq əməkdaşlıq sahəsində layihələrinin həyata keçirilməsi, gənclər təşkilatlarının beynəlxalq əlaqələrinin qurulması, Azərbaycanda bununla bağlı mötəbər tədbirlərin, forumların keçirilməsi, daşıyıcısı gənclər olan mədəniyyətlərarası dialoqun təşkili istiqamətində qətiyyətli addımlar atılıb, mühüm qərarlar qəbul edilmişdir.

Prezident İlham Əliyevin 2007-ci il 16 aprel tarixli sərəncamı ilə təsdiq edilmiş "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsil üzrə Dövlət Proqramı" bütün təbəqədən olan gənclərin xaricdə təhsilinə geniş imkanlar yaratdı. Bu proqram çərçivəsində yüzlərlə gənc dünyanın ən nüfuzlu ali təhsil müəssisələrində təhsillərini davam etdirir. Azərbaycan gəncləri ölkənin elmi, ictimai-siyasi, iqtisadi və mədəni həyatında fəal iştirak edir. Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 2 iyul tarixli fərmanı ilə elm, təhsil, mədəniyyət, gənclər siyasəti və gənclərlə iş, ictimai və sosialyönümlü fəaliyyət, innovasiya və sahibkarlıq fəaliyyəti sahələrində xüsusi fərqlənən istedadlı gənclərə "Gənclər üçün Prezident Mükafatı" təsis olundu.

***Həyata keçirilən dövlət gənclər siyasəti Azərbaycan gəncliyinin inkişafına təkan vermiş, onların özlərini cəmiyyətdə təsdiq etməsində, milli vətənpərvərlik ruhunda inkişaf etməsində, gənclərimizin dövlətçiliyə bağlı, intellektual, yüksək dünyagörüşlü bir qüvvə kimi formalaşmasında mühüm rol oynayıb. 44 günlük Vətən müharibəsi dövründə biz bunun bir daha şahidi olduq.***

Son illərdə ölkədə aparılan kadr islahatları, gənclərin dövlət strukturlarında məsuliyyətli vəzifələrə təyinatı müasir dövrdə ölkəmizdə dərin bilikli və yüksək bacarıqlı gənc kadrlar korpusunun formalaşmasında, yüksək təhsil göstəriciləri olan gəncləri cəlb etməklə idarəçilik sistemində beynəlxalq təcrübənin öyrənilməsi və innovativliyin təmin edilməsində mühüm əhəmiyyət kəsb edir.

Ölkənin kadr potensialında aparılan gəncləşmə siyasəti bu gün, bir çox sahələrdə olduğu kimi, elm və təhsil sahəsində də öz bəhrəsini verməkdədir. Ali təhsil almış gənclərə göstərilən yüksək etimad müxtəlif ixtisaslar üzrə elmi biliklərə yiyələnən tələbələrin stimullaşdırılması baxımından xüsusilə əhəmiyyətlidir.

Azərbaycan dövlətinin elm, təhsil və gənclər siyasətinə ölkəmizin ali təhsil ocaqlarının flaqmanı olan Bakı Dövlət Universiteti də öz məxsusi töhfəsini verməkdədir. Universitet rəhbərliyi və professor-müəllim heyətinin ümdə məqsədi gənclərin savadlı, dərin bilikli və yüksək bacarıqlı, geniş dünyagörüşünə malik, vətənpərvər və dövlətçilik ənənələrinə sadiq vətəndaş kimi formalaşdırılması, Azərbaycanın parlaq gələcəyini təmin edə biləcək yüksəkixtisaslı peşəkar kadrlar yetişdirməklə ölkəmizin intellektual insan kapitalını zənginləşdirməkdir.

*Bu gün BDU-da tələbə-gənclərin hərtərəfli inkişafı, müasir meyarlara uyğun ali təhsil almaları, əmək bazarının tələblərinə cavab verən rəqabətədavamlı kadr kimi yetişmələri, onların ictimai təşəbbüslərinin dəstəklənməsi, idarəetmə və tədqiqat yönlü fəaliyyətə cəlb edilməsi, fəal həyat mövqeyinin formalaşdırılması və möhkəmləndirilməsi, ictimai həyatda təşəbbüskarlıqlarının stimullaşdırılması, gənclərin asudə vaxtının səmərəli təşkili üçün hər bir şərait yaradılmışdır. Universitetdə yeni yaradılmış "Humanitar məsələlər və gənclər siyasəti" şöbəsi fəaliyyət göstərir. Universitetdə yüzlərlə ixtisas və ixtisaslaşmalar sırasında ali təhsilin bakalavriat və doktorantura səviyyələrində "Sosial iş" ixtisası, magistratura səviyyəsində isə "Gənclərlə iş" ixtisaslaşması üzrə kadr hazırlığı da həyata keçirilir.*

Universitetdə gənclərin innovativ potensialı və təşəbbüskarlığının dəstəklənməsi, intellektual fəaliyyətə daha geniş cəlb edilməsi, təhsilə, elmə, mədəniyyət və incəsənətə, yeni texnologiyalara marağının, nailiyyətlər əldə etmək imkanlarının artırılması, onlarda müstəqil dövlətçilik ənənələrinə hörmət və sədaqət hissinin gücləndirilməsi, tələbə-gənclər arasında sağlam rəqabət və elmi ünsiyyət mühitinin yaradılması, informasiya texnologiyaları vasitəsilə innovativ düşüncənin təşviq edilməsi, onların sosial-məişət problemlərinin həlli istiqamətində davamlı və ardıcıl addımlar atılır, məqsədyönlü tədbirlər icra olunur.

Tədris prosesinin elmi tədqiqatla əlaqələndirilməsi, innovativ istiqamətlərin inkişaf etdirilməsi, elm və təhsilin istehsalatla inteqrasiyasının gücləndirilməsi, tələbə, magistrant və doktorantlarda tədqiqatçılıq və peşə fəaliyyəti üçün zəruri olan praktiki bilik, bacarıq və vərdişlərin formalaşdırılması, müxtəlif elm sahələrində elmi yeniliklərin və innovasiyaların tədris prosesinə tətbiqi, müvafiq ixtisas sahələri üzrə aparıcı mütəxəssislərin tədris prosesinə cəlb edilməsi və birgə elmi tədqiqatların aparılması istiqamətində BDU-da yeni mərkəzlər, şöbələr yaradılmış, müasir tipli laboratoriyalar fəaliyyətə başlamışdır.

***Hazırda BDU-da 16 fakültə, 120 kafedra, 2 elmi-tədqiqat institutu (ETİ), 3 elmi-tədqiqat mərkəzi (ETM), 21 elmi-tədqiqat laboratoriyası (ETM), 55 tədris laboratoriyası, 1 elmi kitabxana, 5 muzey, 5 beynəlxalq institut və mərkəz, 1 filial, 1 kollec, 1 lisey, 11 inzibatiidarəetmə mərkəzi fəaliyyət göstərir. BDU kafedralarının AMEA və digər qurumlarda 13 filialı mövcuddur.***

Fizika və riyaziyyat istiqamətləri üzrə prioritetləri, elmi-tədqiqat prosesinin müasir tələblərə uyğun şəkildə təşkil edilməsini nəzərə alaraq BDU Fizika Problemləri və Tətbiqi Riyaziyyat elmi-tədqiqat institutlarında dövrün tələblərinə cavab verən yeni şöbələr yaradılıb. Elmi-tədqiqat institutları fundamental və tətbiqi xarakterli tədqiqatlarla məşğul olur, innovativ layihələrin yerinə yetirilməsində iştirak edir, elmi işlərin sənaye və iqtisadiyyata tətbiqini genişləndirir.

Elmi fəaliyyətin təşkili və innovasiyalar Mərkəzi, Tədrisin təşkili və idarə olunması Mərkəzi, Tələbələrin elmi-texniki yaradıcılıq Mərkəzinin birgə fəaliyyəti çərçivəsində tələbələrdə yaradıcılığın formalaşdırılması və kreativlik üçün qeyri-standart tapşırıqların birgə əməkdaşlıq və komanda şəklində həll olunması və öz fərdi biliklərini paylaşmaq bacarıqlarının aşılanması istiqamətində işlər aparılır. Onlara elmi ideyaların reallaşdırılması, patentləşdirilməsi, təbliği və tətbiqi istiqamətlərində elmi və pedaqoji yönümlü təlimlər keçirilir, elmi tədbirlər təşkil olunur. Yeni texnologiyaların transferi və gənc tədqiqatçılara öyrədilməsi, sənayedə çalışan mütəxəssislərin tədrisə cəlb olunması, dünyanın müxtəlif (ABŞ, İtaliya, Qazaxıstan, Ukrayna, Yaponiya, Rumıniya, Almaniya, Macarıstan, Çex Respublikası və s.) elmi-tədqiqat institutlarında və universitetlərində çalışan mütəxəssislərin ustad dərsləri, mühazirələri və elmi seminarları təşkil olunur. Gənc tədqiqatçılara alınmış elmi nəticələrin əsasında məqalələrin tərtibatı və dərc olunması istiqamətində müxtəlif təlimlər təşkil edilir.

COVID-19 pandemiyasının yaratdığı çətinliklərə baxmayaraq, 2020-ci ildə universitetdə professor müəllim heyəti və əməkdaşlar tərəfindən 45 monoqrafiya, 37 kitab, 52 dərslik, 73 dərs vəsaiti, 2394 məqalə, o cümlədən 1157 məqalə xaricdə, 950 tezis, o cümlədən 568 tezis xaricdə, 17 metodik göstəriş, 187 proqram nəşr etdirilib. Xaricdə nəşr olunmuş 1157 məqalədən 525- i, yəni bütün xaricdə nəşr olunmuş məqalələrin 45 faizi müxtəlif nüfuzlu beynəlxalq xülasələndirmə və indeksləmə sistemlərinə (bazalarına) (Web of Science, Scopus, Copernicus və digər) daxil olan impakt faktorlu jurnallarda nəşr olunub. Son 5 il ərzindəki elmi nəşrlərin illər üzrə təhlili göstərir ki, xaricdə dərc olunmuş məqalə sayının ümumi məqalə sayına olan faiz nisbəti ildən-ilə artır. Hazırda BDU dünyanın 58 ölkəsindəki müxtəlif qurumlar ilə sıx elmi əməkdaşlıq edir.

***2020-ci ildə Azərbaycan üzrə "Web of Science" bazasına daxil olan jurnallarda dərc olunmuş 1874 məqalədən 390-ı BDU əməkdaşlarına aiddir.*** "Clarivate Analytics" şirkətinin "InCites" qiymətləndirmə sisteminin nəticələrinə əsasən, 2015–2020-ci illər ərzində Azərbaycan üzrə dərc olunmuş elmi əsərlər içərisində BDU-nun payı 21 faiz və Azərbaycan Respublikasındakı bütün ali təhsil müəssisələri üzrə dərc olunmuş elmi əsərlərdə isə 44 faizdir.

"Clarivate Analytics" şirkətinin rəsmi məlumatına əsasən, 1975-ci ildən bugünə qədər BDU əməkdaşları, doktorantları və tələbələri tərəfindən Web of Science bazasına daxil olan jurnallarda 3161 elmi əsər nəşr edilib. Bu əsərlərə 14616 dəfə istinad edilib. BDU-nun h-indeksi (h -indeks və ya Hirş indeksi alimlərin, elmi təşkilatın fəaliyyətinin elmi məqalələr və həmin məqalələrə istinada görə kəmiyyət göstəricisidir) 44-ə (bu o deməkdir ki, bu bazaya daxil olan dərgilərdə nəşr edilmiş 44 elmi əsərin hər birinə ən azı 44 dəfə istinad edilib), hər bir əsərə edilən istinadların orta sayı isə 4,62-yə qədər yüksəlib. Onu da qeyd edək ki, 2017-ci ilin sonunda BDU-nun h-indeksi 31-ə bərabər idi.

Həm struktur islahatlarının aparılması, həm də prioritet istiqamətlərin dəqiqləşdirilməsi, 2020-ci ildə pandemiyanın yaratdıqları çətinliklərə baxmayaraq, elmi nəticələrin keyfiyyətinin kifayət qədər artmasına səbəb olmuşdur. Bunun nəticəsidir ki, BDU əməkdaşlarının 2020-ci ildə Q1 və Q2 kvartil kateqoriyalı jurnallarda dərc etdirdiyi elmi məqalələrin sayı 2015-ci illə müqayisədə 2,5 dəfə artmışdır.

*2020-ci ildə BDU əməkdaşları 10 patent almışlar. Mühüm nəticə kimi riyaziyyat üzrə 16, fizika üzrə 13, kimya üzrə 8, biologiya üzrə 6, geologiya üzrə 1, coğrafiya üzrə 2, ekologiya üzrə 1, tarix üzrə 10, beynəlxalq münasibətlər üzrə 1, sosial elmlər və psixologiya üzrə 2 (cəmi 60 ) elmi-tədqiqat işi AMEA-nın illik hesabatına daxil edilməsi üçün təqdim olunmuşdur.*

Universitetin əməkdaşları 22 (9 beynəlxalq və 13 respublikadaxili) elmi layihə həyata keçirmişlər. Bu layihələr Avropa Birliyinin Horizon və TEMPUS proqramları, TUBİTAK, Elmin İnkişafı Fondu, AMEA, Azərbaycan Respublikası Təhsil Nazirliyi, Azərbaycan Dövlət Neft Şirkətinin Azneft İstehsalat Birliyi və digər yerli və xarici təşkilatlar tərəfindən maliyyələşdirilir.

Ölkəmizdə konvergens-innovativ biliklərə və praktiki vərdişlərə malik ali təhsilli mütəxəssislərə artan tələbatı nəzərə alaraq, 2020-ci ildə BDU istehsalat müəssisələri ilə olan mövcud əlaqələrini genişləndirmişdir. Bu da gələcəkdə istedadlı mütəxəssislərin sayının artmasına, innovativ təhsil proqramları və fəaliyyətlərinin çoxalmasına, elmi ideyaların kommersiyalaşdırılmasına kömək edəcəkdir. 2020-ci ildə fakültə, ETİ, ETM və ETL-lərin elmi-tədqiqat istiqamətləri BDU-nun inkişaf strategiyasına uyğunlaşdırılmış, fundamental və tətbiqi istiqamətlərə üstünlük verilmişdir.

***Universitetdə BDU Tədqiqat, İnkişaf və İnnovasiyalar Mərkəzinin (Excellence Center) yaradılması istiqamətində işlər davam etdirilir. Mərkəzin əsas vəzifəsi təhsilelm-istehsalat əlaqəsinin tətbiq və elmi nəticələrin kommersiyalaşdırılması prinsipləri əsasında gücləndirilməsi və BDU-nu daha da inkişaf etdirərək tədqiqat universiteti statusuna nail olunmasıdır.*** Son 2 il ərzində Universitetdə "Sənaye kimyası", "Rəqəmsal araşdırmalar", "Mikrobiologiya və virusologiya", "Biomühəndislik", "Kompleks geoloji və geofiziki tədqiqatlar" kimi yeni sənaye yönümlü ETL-lər yaradılmış, iri sənaye ilə əlaqələr qurulmuşdur. 2020-ci ildə BDU-da qeyd olunan istiqamətlərdə bir sıra kommersiya əsaslı neft və qaz sənayesi üzrə layihə müqavilələri imzalanmışdır.

Hazırda 5 layihə (2 layihə kimya üzrə, 3 layihə rəqəmsal araşdırmalar üzrə) icra edilir. Bəhs edilən layihələrə tələbələrin və gənc alimlərin tədqiqatçı köməkçisi qismində cəlb edilməsi onların təcrübə qazanmasına və müstəqil olaraq elmi ideyalarının həyata keçirilməsinə şərait yaratmışdır. Tələbələrin tədqiqatlara əsas hərəkətverici qüvvə kimi cəlb olunması universitetin intellektual inkişafına xidmət etməkdədir.

Böyük tarixə və zəngin ənənələrə malik Bakı Dövlət Universiteti öz tələbələri və məzunları ilə fəxr edir. 44 günlük Vətən müharibəsində işğal altında olan torpaqlarımızı azad edib xalqımıza Zəfər sevinci yaşadanlar, müqəddəs şəhidlik zirvəsinə ucalanlar, savaş meydanında can qoymuş və qan axıtmış qazilər sırasında universitetimizin gəncləri də az olmamışdır.

Bu gün tələbə-gənclərimiz ölkədaxili və beynəlxalq layihələrdə fəal iştirak edir, müsabiqələrdə qalib olurlar. Əminik ki, bu gün BDU-da təhsil alan, elmi biliklərə və təhsilə münasibəti, ictimai fəallığı ilə hər birimizə qürur hissi yaşadan gənclərimiz, ümumiyyətlə, müasir Azərbaycan gəncliyi dövlətimizin və xalqımızın etimadını layiqincə doğruldacaq, gələcək fəaliyyətləri ilə elm və təhsilin davamlı inkişafını, müstəqil Azərbaycanın parlaq gələcəyini təmin edəcəklər.

***Elçin Babayev***
*Bakı Dövlət Universitetinin rektoru*

*AZƏRTAC*

# “Aprel döyüşləri - Böyük Qələbənin başlanğıcı” mövzusunda dəyirmi masa

***Aprel döyüşlərinin beşinci ildönümü ilə əlaqədar Bakı Dövlət Universitetində “Aprel döyüşləri - Böyük Qələbənin başlanğıcı” mövzusunda onlayn dəyirmi masa keçirilib.***



İştirakçıları salamlayan BDU-nun sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Əliş Ağamirzəyev giriş sözü ilə çıxış edərək bildirib ki, xalqımıza uzunmüddətli ataşkəs dövründə ilk dəfə qələbənin sevincini yaşadan və 44 günlük Vətən müharibəsində şanlı zəfərin müjdəçisinə çevrilən bu tarixi qələbə hər birimizin yaddaşında silinməz izlər buraxıb. Natiq çıxışında tarixə “Dördgünlük müharibə” adı ilə düşən Aprel döyüşləri gənclərin hərbi vətənpərvərlik ruhunu, xalqımızın böyük qələbəyə inamını daha da artırdığını vurğulayıb. Onu da əlavə edib ki, uğurlu Aprel döyüşlərinin məntiqi davamı olaraq, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsində torpaqlarımızı işğaldan azad edib, Ermənistan kapitulyasiya aktına imza atmaq məcburiyyətində qalıb.

Daha sonra Milli Məclisin üzvləri Arzu Nağıyev, Cavid Osmanov, BDU-nun Kitabşünaslıq və nəşriyyat işi kafedrasının müdiri, birinci Qarabağ müharibəsi veteranı Knyaz Aslan, Tarix fakültəsinin müəllimi Hüseyn Hüseynlinin çıxışları dinlənilib. Çıxışlarda aprel döyüşlərində Milli Ordumuzun hərbi qulluqçularının göstərdiyi igidlikdən, bu tarixi hadisənin əhəmiyyətindən, qəhrəmanlıq nümunələrindən, Azərbaycan dövlətinin qüdrətinin, Milli Ordumuzun gücünün və xalqımızın monolit birliyinin nümayişinə çevrilməsindən ətraflı bəhs olunub.

Aprel döyüşlərinin iştirakçıları - BDU-nun Tarix fakültəsinin IV kurs tələbəsi Səxavət Ağayev, Coğrafiya fakültəsinin III kurs tələbəsi Ramil Əmiraslanov, Şərqşünaslıq fakültəsinin IV kurs tələbəsi Heydər Pərvazlı şanlı hərb tariximizə qızıl hərflərlə yazılmış Aprel döyüşlərinin Azərbaycan xalqının həmrəyliyini bir daha nümayiş etdirdiyini söyləyərək öz döyüş xatirələrini iştirakçılarla bölüşüblər.

# "Aprel Zəfəri" adlı tədbir keçirilib

***Aprelin 5-də Mexanika-riyaziyyat fakültəsinin təşkilatçılığı ilə Aprel döyüşlərinin 5 illiyinə həsr olunmuş "Aprel Zəfəri" adlı onlayn tədbir keçirilib. Tədbirdə Vətən uğrunda canından keçən şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.***

Mexanika-riyaziyyat fakültəsinin dekan müavini Etibar Əhmədov tədbiri giriş sözü ilə açaraq Aprel döyüşləri barədə ətraflı məlumat verib. Bu qələbənin tariximizin yaddaşında şanlı səhifə olduğunu qeyd edən E.Əhmədov Vətənin azadlığı uğrunda canını fəda verən hərbi qulluqçularımızın əziz xatirəsini hər zaman əziz tutaraq, onların mübarizəsini özlərinə nümunə götürməyi tələbələrin diqqətinə çatdırıb.

BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov tələbələrə Aprel döyüşlərinin strateji əhəmiyyətindən bəhs edərək Azərbaycan əsgərinin qəhrəmanlığını və tarixi qələbəni təcəssüm etdirdiyini diqqətə çatdırıb. Bu döyüşlərin bütün dünyaya Azərbaycan ordusunun gücünü və qələbə əzmini nümayiş etdirdiyini xüsusi vurğulayıb. Mexanika-riyaziyyat fakültəsinin TGT sədri Katya İbrahimli ordumuzun Aprel döyüşlərindəki şücaətindən bəhs edərək bu döyüşlərin gənclərin hərbi vətənpərvərlik ruhunu daha da yüksəltdiyini qeyd edib. O, gənclərin Azərbaycan tarixinin bu şanlı səhifəsi ilə qürur duyduqlarını söyləyib.

Tədbirdə Vətən müharibəsi və Aprel döyüşləri qəhrəmanları - Azərbaycan Silahlı Qüvvələrinin kapitanı Hikmət Məmmədov, Bakı Dövlət Universitetinin tələbə qaziləri Ramil Əmiraslanov və Heydər Pərvazlı öz döyüş təəssüratlarını gənclərlə bölüşüblər. Çıxışlarda Vətəni hər şeydən çox sevməyin, onun üçün hər qəhrəmanlığa hazır olmağın və vətənimizi hər şeydən üstün tutmağın vacibliyi vurğulanıb. Qazilər azğın düşmənlə necə qəhrəmancasına vuruşduqlarından, Ali Baş Komandanın hər bir əmrini necə həvəslə və şərəflə yerinə yetirməklərindən də danışıblar.

# BDU-da Erasmus+ mübadilə proqramı çərçivəsində ilk görüş

***Aprelin 1-də Bakı Dövlət Universiteti ilə Berlin Texniki Universiteti arasında Erasmus+ mübadilə proqramı çərçivəsində ilk görüş keçirilib.***




Onlayn görüşdə "Sahilyanı ərazilərdə iqlim dəyişmələrinə adaptasiya tədbirləri üzrə məkan-zaman mühəndisliyi istiqamətində yeni tədris kurslarının yaradılması" ("New courses in geospatial engineering for climate change adaptation of coastal ecosystems") adlı layihə müzakirə olunub.

Görüşdə layihənin koordinatoru, BDU-nun Coğrafiya fakültəsinin müəllimi Aytən Məhərrəmova-İmanova sahil ekosistemlərinin ekoloji təhlükəsizliyini təmin etmək məqsədi ilə yeni texnologiyalardan istifadə edərək geoməkan texnologiyaları üzrə bakalavr, magistr və doktorantura kurikulumlarının müasirləşdirilməsi mövzusunda, həmçinin layihənin perspektivləri barədə müzakirələrdə iştirak edib.

# BDU-nun professoru beynəlxalq simpoziumda çıxış edib

Coğrafiya fakültəsinin professoru beynəlxalq onlayn simpoziumda məruzə ilə çıxış edib. Türkiyənin Egey Universitetinin Türk Dünyasının Tədqiqat İnstitutunun təşkilatçılığı ilə Cənubi Qafqazda baş verən sosial-iqtisadi və siyasi dəyişiklikləri müzakirə etmək üçün I beynəlxalq simpozium keçirilib.

BDU-nun İqtisadi və sosial coğrafiya kafedrasının müdiri, professor Çingiz İsmayılov simpoziumda bölmə moderatoru və məruzəçi kimi iştirak edib. Simpoziumda Azərbaycan, Türkiyə, Rusiya və Gürcüstandan iştirak edən alimlər Cənubi Qafqazda yaranmış yeni geosiyasi mənzərədə sosial-iqtisadi inkişaf yollarını təhlil edərək, regionda əməkdaşlığın genişləndirilməsi imkanları haqda müzakirələr aparıblar.

Professor Ç.İsmayılov “İşğaldan azad olunmuş Azərbaycan ərazilərində sosial-iqtisadi inkişafın bərpası” mövzusunda məruzə edib, “Böyük Qayıdış” proqramı əsasında regionun ölkə iqtisadiyyatına reinteqrasiya istiqamətləri barədə məlumat verib, bu istiqamətdə dövlət tərəfindən ardıcıl aparılan quruculuq işlərindən danışıb.

# AzTV ilə BDU-nun birgə hazırladığı “Uğur düsturu”nun yeni buraxılışı




Aprelin 9-da Azərbaycan Dövlət Televiziyası (AzTV) ilə Bakı Dövlət Universitetinin birgə hazırladığı “Uğur düsturu” verilişinin yeni buraxılışında BDU-nun Kimya fakültəsinin Neft kimyası və kimya texnologiyası kafedrasının gənc tədqiqatçıları və tələbələri öz uğurlarından danışıblar. Tələbələr eyni zamanda laboratoriyadakı praktik işlərini nümayiş etdiriblər.

# BDU Türkiyədə keçirilən ənənəvi Kitabxana həftəsində təmsil olunub

Kitabxanaçılıq-informasiya fakültəsi və Türkiyə Respublikasının Kastamonu Universitetinin Bilgi və bəlgə yönətimi bölümünün birgə təşkilatçılığı ilə onlayn tədbir keçirilib. Tədbir Türkiyədə 1964-cü ildən başlayaraq hər il mart ayının sonunda keçirilən “Kitabxana həftəsi” çərçivəsində baş tutub.

Tədbirdə hər iki fakültənin rəhbərliyi, professor-müəllim heyəti və tələbələri iştirak edib. Moderator, Kastamonu Universitetinin tələbəsi Tufan Cinge bildirib ki, 1964-cü ildən bəri davam edən “Kitabxana həftəsi”nin keçirilməsində məqsəd cəmiyyətdə kitabxanaçılıq təhsilinə, kitabxana işinə marağı artırmaq, bu istiqamətdə daha yaxşı nəticələr əldə etməkdir. Qeyd edilib ki, həftə boyu müxtəlif tədbirlər, kitabxanalara, sərgi salonlarına və muzeylərə ekskursiyalar təşkil edilir, nüfuzlu ictimai xadimlərlə görüşlər keçirilir, mühazirələr dinlənilir. Sonra BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsinin dosenti Pərviz Kazımi “Azərbaycanda kitabxanaçılıq təhsili” mövzusunda mühazirə oxuyub.

REKTORLARIMIZ...

# Onun kəşfi öz adını daşıyır

**_Bu danılmaz bir faktdır ki, BDU həmişə Azərbaycanda azadfikirliliyin, müstəqil düşüncənin və demokratiyanın beşiyi olub. Bu 1980-cı illərin sonlarında ölkədə gedən proseslərdə bir daha özünü büruzə verdi və universitet Azərbaycanda gedən proseslərin beşiyinə çevrildi. Qarşıda onu çətin, amma şərəfli bir zaman gözləyirdi._**



**_20-ci yüzilliyin sonlarında baş verən ən əlamətdar hadisə 1980-ci illərin sonundan başlanan milli azadlıq hərəkatının, 1990-cı illərin əvvəllərində Azərbaycan Respublikasının müstəqillik qazanması ilə nəticələnməsi oldu. Bu azadlıq mücadiləsi hərəkatının önündə inamla addımlayan vətənpərvərlər arasında BDU-nun professor-müəllim heyəti, tələbələri, əməkdaşları və məzunları da var idi. Belə çətin bir anda BDU-ya görkəmli alim Yəhya Cəfər oğlu Məmmədov rəhbərlik edib._**

Yəhya dünyaya gələndə təkcə Naxçıvan deyil, bütöv Azərbaycan od içində qovrulurdu. 1930-cu il. Azərbaycanın çiçəklənməsi naminə işləyə biləcək başların məhv edildiyi zaman. Tədqiqatçıların fikrincə, repressiyanın daha güclü dalğası otuzuncu illərə düşür və bu dalğa minlərlə azərbaycanlının məhvinə səbəb oldu. Ailələr dağıldı, ocaqlar qaraldı, nəsillərin izi-tozu qalmadı...

Yəhya belə çətin anda böyüdü, təhsil aldı. Naxçıvanda orta məktəbi əla qiymətlərlə başa vuran gənc Bakıda da BDU-nu (1954) fərqlənmə diplomu ilə bitirdi. Amma bununla kifayətlənmədi. Elmin daha çətin sirlərini açmaq, dərinliklərindən agah olmaq üçün BDU-nun aspiranturasına daxil oldu. 1957-ci ildə aspiranturanı başa vuranda rəhbərlik onun istedadını nəzərə alaraq universitetdə saxladı. Gənc alim bir müddət elmi ixtiralarını Azərbaycandan kənarda aparmalı olur. O, ilk olaraq Voronej Mühəndis-İnşaat İnstitutunda fəaliyyətə başlayır və 1960-1965-ci illərdə burada işləyir. 1965-ci ildə Rostov Dövlət Universitetində doktorluq dissertasiyasını müdafiə edir. Qafqazlı balasının bu uğuru böyük əks-səda doğurur. Elə həmin universitetdə ona yüksək maaş, vəzifə təklif edilsə də, Yəhya müəllim buna razı olmur və Vətənə qayıdır. Tələbəliyinin, gəncliyinin ən xoş günlərini hər an ona xatırladan BDU-ya üz tutur. Beləliklə, 1965-ci ildən 2000-ci ilə qədər (2000-ci ildə dünyasını dəyişmişdir) BDU Yahya müəllim üçün təkcə iş yeri yox, həm də ikinci evi olur. 1965-ci ildən Mexanika-riyyaziyyat fakültəsində, Hesablama riyaziyyatı kafedrasına rəhbərlik etməyə başlayan Yəhya müəllim ömrünün sonuna kimi rəhbərliyini davam etdirib.

35 il ərzində Yəhya müəllimin böyük əməyi hesabına respublikada hesablama riyaziyyatı bir elm sahəsi kimi yaranaraq inkişaf edib. Onun rəhbərliyi ilə təkcə bu kafedranın əməkdaşları deyil, Rusiya, Almaniya, Polşa, Türkiyə, İraq kimi ölkələrin onlarla gənc mütəxəssisi də hazırlanıb. Məhz bu xidmətlərinə görə o, 1981-ci ildə “Xalqlar dostluğu” ordeni ilə təltif edilmiş və ABŞ-ın Minneapolis şəhərinin “Fəxri vətəndaşı” seçilmişdir. Yəhya müəllim dəfələrlə Polşada, Almaniyada, Bolqarıstanda, Türkiyədə konfranslarda, beynəlxalq qurultaylarda çıxışlar etmiş, elmi mülahizələrini, fikirlərini dünya alimləri ilə bölüşmüşdür.

Əslində onun tətbiq etdiyi üsullar hazırda dünyanın bir çox riyaziyyatçıları tərəfindən müxtəlif məsələlərin həlli üçün tətbiq olunur. 1974-cü ildə işıq üzü görən “Adi diferensial tənliklərin təqribi hallarının tapılması üsulları” adlı monoqrafiyadan bu gün də tələbələr bəhrələnir. Bu monoqrafiya “analitik təqribi üsulların verildiyi ilk kitabdır” və buna görə o, dövlət mükafatına layiq görülüb. Keçmiş SSRİ miqyasında tanınan istedadlı alim 100-dən çox elmi məqalənin (bu məqalələrin böyük əksəriyyəti beynəlxalq nüfuzlu elmi jurnallarda çap olunub), beş dərsliyin və yeddi monoqrafiyanın müəllifidir. Məqalələrinin, əsərlərinin çoxunu həm Azərbaycan, həm də rus dilində yazan alimin dərslikləri hazırda tələbələrin, gənc alimlərin stolüstü kitabıdır və həmin kitab türk dilinə çevrilərək Türkiyədə də çap edilib.

Mütəxəssislərin fikrincə, hesablama riyaziyyatı, riyaziyyatın ən vacib bölmələrindən biridir və elmin bu sahədəki inkişafında Yəhya müəllimin özünəməxsus yeri olub. O, tənliklərin həlli yığılan inteqrasiyalar şəklində axtarılan ekvivalent tənliklərin gətirilməsi üçün maraqlı üsul təklif etmişdir. Bu üsul elmdə “Y.C.Məmmədov üsulu” adlandırılır”. 1980-cı ildə Əməkdar elm xadimi adına layiq görülən Yəhya müəllim 1983-cü ildə AEA-nın müxbir üzvü seçilir.

Yuxarıda qeyd etdiyimiz kimi 1980-ci illərin sonu ölkəmizdə baş verən siyasi hadisələr universitetin həyatında da çətinliklərə səbəb oldu.

Belə çətin bir zamanda 1987-ci ilin sonu Yahya Məmmədov BDU-ya rektor təyin edildi və o, 1989-cu ilin əvvəllərinə kimi bu vəzifədə işlədi. Yəhya müəllimin BDU-ya rektor təyin edildiyi ili əksər tədqiqatçılar yenidənqurmanın ikinci mərhələsi və aşkarlığın genişlənməsi, qeyri-rəsmi ictimai hərəkatların fəallaşdığı dövr adlandırırlar. Tarixi hadisələr də sübut edir ki, bir siyasi rejimdən başqasına keçmək hədsiz dərəcədə çətin bir prosesdir və bu özünü Sovet hökuməti dağılanda da büruzə verdi. Sözsüz ki, həm ağır iqtisadi, həm də ictimai, mənəvi böhran şəraitinə düşmüş universitetə belə bir zamanda rəhbərlik etmək çox çətin idi. Ölkədə baş verən özbaşınalıq, xaos tədris prosesində əngəllər yaratmağa başladı. Tədricən təhsilin keyfiyyətində, elmi-tədqiqatların aparılmasında geriləmə özünü göstərirdi. Bütün bunlara baxmayaraq, Yahya müəllim universiteti bu sınaqdan üzüağ çıxarmağa can atırdı...

Yeri gəlmişkən, bir faktı da qeyd etmək lazımdır ki, BDU-nun tarixi ilə bağlı yazılan əksər əsərlərdə, universitetin 1987-1992-ci illər fəaliyyəti şərh edilməyib. Məsələn, Aslan Atakişiyevin “Bakı Dövlət Universitetinin tarixi” adlı əsərinin I hissəsində (1991) sonda BDU-nun 1987-1988-ci illərdəki fəaliyyətindən çox, Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin plenumlarından (xüsusən də M.S.Qorbaçovun çıxışlarından) bəhs edilir. Müəllif universitetin partiya təşkilatının işindən bəhs edərək oxucusunu yenidən sosializmin qələbəsinə ruhlandırır (!?). (Baxmayaraq ki, əsər 1991-ci ildə çap olunub). Artıq bu zaman müəllifin hər səhifədə az qala beş-altı dəfə adını fəxrlə çəkdiyi M.S.Qorbaçovun “xeyir-duası ilə” Azərbaycan torpaqlarının 20 faizi işğal edilmiş, yüzlərlə soydaşımız doğma yurdundan-yuvasından didərgin düşmüş, Azərbaycan hər gün onlarla şəhid torpağa tapşırırdı.

“1988-ci ildə universitetdə xalq təsərrüfatının kadrlara real tələbatını təmin edən yeni mexanizmə keçid prosesi güclənməyə başladı. Müəssisə və təşkilatların təsərrüfat hesabına və özünümaliyyələşdirməyə keçməsi ilə əlaqədar fakültələrin hazırladığı mütəxəssislərə cari və prespektiv tələbatı öyrənmək məqsədilə fakültələrdə komissiyalar yaradıldı. Universitetdə kadrların hazırlanması və yenidən hazırlanması üzrə vaxtında birbaşa məqsədli müqavilələr bağlanmasını təmin etmək üçün xüsusi briqadalar təşkil olundu. Bu briqadalar məzunların birbaşa bölüşdürülməsinə təminat verirdi. Universitet rəhbərliyi respublika Xalq Təhsil Nazirliyi və Mədəniyyət Nazirliyi, birliklər, müəssisələr ilə məqsədli hazırlıq, eləcə də Universiteti əyani bitirən məzunların beşillik və illik bölgüsü planlarının tərtib edilməsində müqavilə münasibətlərini müəyyən edirdi. Deməli, çətin də olsa, tədris prosesi davam edirdi, universitetin ictimai-siyasi, elmi-mədəni həyatında yeniləşməyə doğru atılan ilk cəhdlər baş çıxmırdı və mən bunların şahidi oldum (bu zaman BDU-nun Jurnalistika fakültəsinin tələbəsi idim). Amma onun da şahidi oldum ki, universitet partiya təşkilatı az qala hər gün açıq dərslər apararaq universitetdə tədrisin “yenidənqurmanın” tələbləri əsasında “köklənməsinə” can atsa da, nəticəsi olmadı. (O zaman Jurnalistika fakültəsinin sonuncu kursunda təhsil alırdım). Doğrudur, hələ də Mərkəzin diktəsi ilə “Lenin, Stalin və Brejnev babaların qurduğu, “nurlu gələcəyi” olan, “sülhsevər” Sovet dövlətinin “əzəməti”ni auditoriyalarda təbliğ edənlər də var idi (Çox təəssüf ki, 1988-ci ildə erməni bolşeviklərinin Azərbaycandakı “fəaliyyətini” ağız dolusu tərif edən əsərlər də çap olunurdu).

Tələbələrin ideya-siyasi cəhətdən maariflənməsində və tərbiyələnməsində Lenin tərbiyəsini, sosializmə sədaqəti təbliğ edən Universitet partiya təşkilatı artıq bu cəhdin boşa çıxdığını dərk etməyə məcbur oldu. Əslində o zaman təkcə BDU-nun partiya təşkilatı deyil, bütövlükdə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi sosial strukturu kökündən dəyişdirməyə ehtiyac duyulduğunu bilə-bilə, görə-görə “yuxarılardan başlanmış inqilab”ın elə “yuxarılardaca” qalacağına ümid bəsləyirdilər. Yəhya müəllim kommunist olmasına baxmayaraq, deyilənə görə, o qədər də partiyapərəst olmayıb. Əksinə Universitet partiya təşkilatında “bu avtoritar metodların xiffətini çəkənləri”, “partiyaya “sadiqlik” göstərənləri” xalqın mənafeyi naminə dəyişməyə sövq edib və qismən buna nail də olub.

1988-ci ilin sonu, 1989-cu ilin ilk ayları... Xalqımızın milli azadlıq yolunda mücadiləsi, ölüm-dirim mübarizəsinə qoşulduğu günlər, aylar. Belə bir vaxt Yəhya müəllimi Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinə çağırırlar. Mərkəz rektorun qarşısında qəti qərar qoyur. Ya o, xuliqan ünsürləri BDU-dan qovur, üstünə şər atdırır, həbsinə şərait yaradır, ya da rektor kürsüsünə əlvida deyir. Yəhya müəllim çox gözəl bilirdi ki, Mərkəzin xuliqan ünsür adlandırdığı o vətənpərvər oğullar xalqının azadlığı uğrunda mübarizəyə qalxanlardır və onları bu yoldan heç bir həbs qorxusu döndərə bilməz. Odur ki, heç tərəddüd etmədən vəzifəsindən imtina edir. Bu Mərkəzi Komitədə partiyaya xəyanət kimi qəbul edilir. Universitetdə isə belə söz-söhbət yayılır ki, Yəhya müəllim kollektivi yaxşı idarə edə bilmədiyinə görə Mərkəzi Komitə tərəfindən işdən azad edilib. Təbii bu şayiələri yaradanlar və yayanlar Mərkəzi Komitənin universitetdəki buyruq qulları idi. Onlar üçün vəzifə, Lenin babalarının dili ilə desək, “heç kəs partiyamızı parçalaya bilməz, hamısının külünü göyə sovurarıq”. Siması itirmiş partiya üçün açıq-aşkar təhlükəli bir stereotip...

Sonda yadıma tarixçi alimlərimizdən birinin Kommunist Partiyasını “ikiqatlı fətirə” bənzətməsi düşdü: “...partiya bir növ ikiqatlı fətirdir. Üst qat hakim, nəzarətdən kənar, heç nədən, heç kimdən asılı olmayan aparatdır; alt qat isə statusa görə əslində bitərəflərə tay tutulan sıravi partiyaçılardır”.

*Qərənfil Dünyaminqızı,*
*Milli mətbuat tarixi kafedrasının dosenti*

# “Azərbaycanın ictimai həyatında gənclərin rolu” mövzusunda tədbir keçirilib

***Aprelin 5-də Filologiya və Tarix fakültələrinin birgə təşkilatçılığı ilə “Azərbaycanın ictimai həyatında gənclərin rolu” mövzusunda onlayn tədbir keçirilib. Microsoft Teams platforması üzərindən təşkil olunan tədbirdə BDU-nun Filologiya və Tarix fakültələrinin professor-müəllim heyəti və tələbələri, qonaqlar iştirak ediblər.***

Tədbiri giriş sözü ilə açan BDU-nun Tarix fakültəsinin dekan müavini Bəxtiyar Nəbiyev qonaqları salamlayaraq Azərbaycanda gəncliyin inkişafında Ulu Öndər Heydər Əliyevin rolundan söz açıb, ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda dövlət gənclər siyasətinin uğurla həyata keçirildiyini bildirib.

YAP Veteranlar Şurasının üzvü İsgəndər Quliyev çıxış edərək 90-cı illərin əvvəlində Azərbaycan öz müstəqilliyini əldə etsə də, həm siyasi hakimiyyətdə, həm də dövlətin bütün strukturlarında boşluq yaşandığını xatırladıb. Bundan istifadə edən erməni silahlı qüvvələrinin hücüm edərək ölkəmizin ərazisinin 20%-ə qədərini işğal etdiyinə diqqət çəkib. Həmin dövrdə Naxçıvan MR-nin Ali Məclisinin sədri kimi fəaliyyət göstərən müdrik rəhbər Heydər Əliyevin xalqın israrlı təkidi ilə hakimiyyətə qayıtmasından sonra dövlətimizi parçalanmaqdan, beynəlxalq aləmdən təcrid olunmasından xilas etdiyini vurğulayıb. Bu gün isə qalib ölkənin vətəndaşı kimi 44 günlük Vətən Müharibəsində ölkəmizin ərazi bütövlüyünün təmin olunmasında iştirak edən müzəffər ordumuzun qazandığı qələbələrdən danışıb və Ali Baş Komandanın əzmli siyasi və hərbi fəaliyyətindən söz açıb.

Tədbirdə Milli Məclisin üzvü Elnur Allahverdiyev, BDU-nun Filologiya fakültəsinin dekanı Elçin Məmmədov, Filologiya fakültəsinin tələbəsi Rəhiməxanım Əlipənahova çıxışlarında dövlət gənclər siyasətinin məqsəd və vəzifələrindən, Ulu Öndər Heydər Əliyevin gənclərin inkişafı üçün xidmətlərindən, onun şəxsiyyətinin gənclər üçün örnək olmasından, cənab Prezident İlham Əliyevin bu sahədə gördüyü işlərdən, dövlət idarəçiliyində gənclərin rolunun artırılmasından, könüllülük fəaliyyətindən, Vətən müharibəsində gənclərin göstərdiyi qəhrəmanlıqlardan

# BDU-da Ümumdünya Sağlamlıq Günü qeyd olunub

***Geologiya fakültəsi və Tələbə Gənclər Təşkilatının (TGT) birgə təşkilatçılığı ilə 7 Aprel - Ümumdünya Sağlamlıq Gününə həsr olunmuş onlayn tədbir keçirilib.***




Geologiya fakültəsinin dekan müavini İlqar Quliyev tədbiri giriş sözü ilə açaraq Ümumdünya Sağlamlıq Günü münasibətlə iştirakçıları təbrik edib. Bu əlamətdar günün COVID-19 pandemiyası ilə mübarizənin davam etdiyi bir dövrdə mühüm əhəmiyyət kəsb etdiyini, səhiyyə işçilərinin koronavirusla mübarizədə gərgin əməyinin olduğunu diqqətə çatdırıb.

Tədbirdə qonaq qismində çıxış edən Səhiyyə Nazirliyinin mətbuat xidmətinin əməkdaşı Günay Quluzadə Ümumdünya Sağlamlıq Gününün bütün dünyada qeyd edilməsindən danışıb, koronavirusa qarşı vaksinasiya prosesinin mahiyyəti, insan sağlamlığının qorunması üçün bunun vacib olduğunu qeyd edib.

BDU-nun Bilologiya fakültəsinin Molekulyar biologiya və biotexnologiyalar kafedrasının müəllimi Mehnurə Rəhimova, neyrocərrah Tural Mustafayev koronavirus infeksiyası ilə mübarizədə tövsiyə olunan tələblərə əməl etməyin vacibliyini vurğulayıblar.

Tədbirin sonunda Geologiya fakültəsinin dekanı Məhluqə Məmmədova, Hidrogeologiya və mühəndis geologiyası kafedrasının müdiri Bahadır Qələndərov və Faydalı qazıntılar kafedrasının professoru Nazim İmamverdiyevin çıxışları dinlənilib.

# “Azərbaycan-Çin iqtisadi əlaqələrinin müasir vəziyyəti və gələcək perspektivlər” mövzusunda elmi seminar keçirilib

***Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin Dünya iqtisadiyyatı kafedrasının təşkilatçılığı ilə “Azərbaycan-Çin iqtisadi əlaqələrinin müasir vəziyyəti və gələcək perspektivlər” mövzusunda onlayn elmi seminar keçirilib.***



Seminarı giriş sözü ilə açan Dünya iqtisadiyyatı kafedrasının müdiri, professor Hacıağa Rüstəmbəyov mövzunun əhəmiyyətindən danışaraq Çin iqtisadiyyatının müasir inkişaf tendensiyası və Azərbaycan-Çin iqtisadi əlaqələrinin müasir vəziyyəti ilə bağlı məsələlərdən bəhs edib. Sonra Dünya iqtisadiyyatı kafedrasının əməkdaşları Xaliq Rüstəmov “Çin-Azərbaycan iqtisadi əlaqələrinin inkişafı və “Bir kəmər - bir yol” layihəsi”, Güllər Bağırova isə “Azərbaycan-Çin ticarət münasibətləri və pandemiya dövründə müasir vəziyyət” adlı məruzələrlə çıxış ediblər.

Seminarda çıxış edən dosent Habil Aslanov “Çin iqtisadi inkişaf modeli və xüsusiyyətləri” ilə bağlı mühüm məsələlərə diqqət çəkib, bu modelin öyrənilməsini və Azərbaycan iqtisadiyyatına tətbiqi xüsusiyyətlərinin araşdırılmasının zəruriliyini vurğulayıb. Siyasi elmlər namizədi Kərəm Məmmədov mövzu haqqında öz fikirlərini bölüşüb.

# Azərbaycan Milli Kitabxanasının direktoru BDU-da ustad dərsi keçib



***Azərbaycan Milli Kitabxanasının direktoru professor Kərim Tahirov aprelin 6-da Kitabxanaçılıq-informasiya fakültəsinin professor-müəllim heyəti, gənc tədqiqatçıları, magistrant və tələbələri üçün Kitabxana-informasiya fəaliyyətinin menecmenti fənnindən “Azərbaycan Milli Kitabxanası müasir mərhələdə” mövzusunda onlayn ustad dərsi keçib.***

Professor Kərim Tahirov öncə son dövrlər Bakı Dövlət Universitetində təşkil olunan ustad dərslərini yüksək qiymətləndirdiyini bildirib. O, Ulu Öndərimiz Heydər Əliyevin hər zaman kitabxana işinə böyük dəyər verdiyini diqqətə çatdıraraq, Ulu Öndərin "Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir. Ona görə də kitabxanaya daimi hörmət xalqımızın mədəniyyətini nümayiş etdirən amillərdən biridir" - kəlamını bir daha xatırladıb.

Milli Kitabxananın həyata keçirdiyi bir sıra layihələr haqqında məlumat verən professor, xüsusilə Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin dəstəyi ilə həyata keçirilən “Milli-mənəvi sərvətlərimizin Vətənə qayıdışı” layihəsinin əhəmiyyətindən bəhs edib. Bildirib ki, layihənin həyata keçirilməsində məqsəd dünyanın müxtəlif arxiv və kitabxanalarında saxlanılan irsimizi rəqəmsal formada ölkəmizə gətirməkdir. Artıq layihə çərçivəsində Nizami, Füzuli, Tusi və digər görkəmli şəxsiyyətlərimizə aid 53 əlyazmanın Milli Kitabxananın fonduna daxil olunduğu diqqətə çatdırılıb. Kitabxana əməkdaşlarının əksəriyyətinin məhz BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsinin məzunları olduğunu diqqətə çatdıran natiq gələcəkdə də kadrların yerləşdirilməsində fakültənin məzunlarının xüsusi rol oyanayacaqlarına əminliyini bildirib.

Ustad dərsi auditoriya tərəfindən böyük maraqla dinlənilib, professor Kərim Tahirov dinləyicilərin mövzu ilə bağlı çoxsaylı suallarını cavablandırıb.

# "Qarabağ Azərbaycandır!" adlı tədbir

***Bakı Dövlət Universitetinin Tələbə Həmkarlar İttifaqı Komitəsinin (BDU THİK) təşkilatçılığı ilə aprelin 6-da Biologiya fakültəsində 44 günlük Vətən müharibəsinin Zəfər Gününə həsr olunmuş "Qarabağ Azərbaycandır!" adlı onlayn tədbir keçirilib.*** Tədbirdə şəhid ailələri - General Polad Həşimovun bacısı Kəmalə Həşimova, Cəbrayıl Dövlətzadənin xalası oğlu Cavid Hacılı, Xudayar Yusifzadənin anası Radə Qurbanova və Nicat Tarıverdiyevin anası Şükran Faruk qızı, qazilərimiz - baş leytenant Namiq Seyfəddinli, əsgər könüllü Turan Hüseynli və Aprel döyüşlərinin iştirakçısı Afiyəddin Əliyev iştirak edib. Qonaqlar çıxışlarında tədbir iştirakçılarını parlaq qələbə münasibətilə təbrik edib, əsgərlərimizin qəhrəmanlığından, vətən sevgisindən, göstərdikləri rəşadətdən danışıblar.

Biologiya fakültəsinin THİK sədri Əbülfət İsmayılov və sədr müavini Sevinc Mirzəyeva Azərbaycanın Müzəffər Ordusunun zəfər yürüşü, Qarabağın, əzəli torpaqlarımızın işğaldan tam azad edilməsi, uzun illər düyünə düşmüş və region üçün təhlükə mənbəyi olan Dağlıq Qarabağ münaqişəsinin uğurla və ədalətlə həll edilməsi haqqında məlumat veriblər.

# "Nizami və dünya ədəbiyyatı" mövzusunda elmi seminar

***Aprelin 8-də Filologiya fakültəsində Dünya ədəbiyyatı kafedrasının təşkilatçılığı ilə "Nizami və dünya ədəbiyyatı" mövzusunda onlayn elmi seminar keçirilib.***

BDU-nun Dünya ədəbiyyatı kafedrasının müdiri, professor Cəlil Nağıyev "Nizami və dünya ədəbiyyatı" mövzusunda məruzə edib. Məruzədə N.Gəncəvi yaradıcılığının bəşəri əhəmiyyəti, dünya miqyasında araşdırılması və təbliği, Nizami irsinə münasibət, azərbaycanlı alimlərin sözügedən mövzuda apardıqları tədqiqatlardan bəhs edilib, xüsusilə akademik Nərgiz Paşayevanın bu sahədəki xidmətləri diqqətə çatdırılıb. İngilis və İran nizamişünaslığının əhəmiyyətindən danışan C.Nağıyev N.Gəncəvinin həyatı və yaradıcılığı haqqında səsləndirilən mübahisəli elmi görüşlərə toxunub, onun Azərbaycan şairi olması ilə bağlı mühüm arqumentlər barəsində məlumat verib.

Daha sonra AMEA-nın M.Füzuli adına Əlyazmalar İnstitutunun elmi katibi dosent Əzizağa Nəcəfov, BDU-nun Dünya ədəbiyyatı kafedrasının dosentləri - Sevinc Məmmədova, Nüşabə Sadıxlı və İlqar Hüseynov, Azərbaycan dilçiliyi kafedrasının dosenti Fikrət Şiriyev və başqaları N.Gəncəvinin dünya ədəbiyyatındakı mövqeyindən, dünya nizamişünaslığının aktual problemlərindən danışaraq mövzu ilə bağlı fikirlərini bölüşüb, məruzəçiyə suallar ünvanlayıblar.

# Jurnalistika fakültəsində Rafiq Həşimov ilə görüş keçirilib

***Jurnalistika fakültəsinin tələbələri ilə aparıcı, diktor, ssenarist, rejissor, Azərbaycan Respublikasının əməkdar artisti, Yazıçılar Birliyinin üzvü, Azərbaycan Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyətinin (AzTV) sədr müavini Rafiq Həşimov arasında onlayn görüş keçirilib.***



Multimedia və elektron kommunikasiya kafedrasının baş müəllimi Əli Hacıyev görüşün əhəmiyyətindən danışıb, qonaq haqqında tələbələrə ətraflı məlumat verib. Rafiq Həşimov öz növbəsində tədbirdə iştirakından şad olduğunu, tələbə-gənclərlə ünsiyyətdən məmnunluğunu diqqətə çatdırıb. Qonaq Azərbaycan Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyətinin (AzTV) inkişaf mərhələsindən, dünənindən və bugünündən söhbət açıb.

Eyni zamanda tələbələrlə öz təcrübəsini bölüşüb, teleaparıcının iş özəlliklərindən danışıb, jurnalistin nitq mədəniyyəti, müasir media dünyası, informasiya siyasəti, müasir jurnalistikanın yeni yaradıcılıq keyfiyyətləri kimi məsələlərdən bəhs edib, tələbələrin çoxsaylı suallarını cavablandırıb.

# BDU-da 12 Aprel - "İnsanın Kosmosa Uçuşu" Beynəlxalq Günü qeyd olunub

***Bakı Dövlət Universitetində 12 Aprel - "İnsanın Kosmosa Uçuşu" Beynəlxalq Gününə həsr olunmuş onlayn tədbir keçirilib.***

Moderator, BDU-nun elmi fəaliyyətin təşkili və innovasiyalar Mərkəzinin müdiri, professor Mais Süleymanov vurğulayıb ki, 1961-ci ildə sovet hərbi təyyarəçisi Yuri Qaqarinin ilk pilotlu uçuşunun həyata keçirildiyi 12 aprel tarixi bütün dünyada, eləcə də Azərbaycanda Aviasiya və Kosmonavtika Günü kimi qeyd edilir.

Giriş sözü ilə çıxış edən BDU-nun rektoru Elçin Babayev qeyd edib ki, dünyanın kosmik sənaye sahəsindəki nailiyyətləri Azərbaycanda bu elmin və sənayenin inkişafına böyük təkan verib. Bu sahədə yeni elm və istehsalat sahələri yaranıb, milli kadrlar məktəbi formalaşmağa başlayıb. Rektor respublikamızda kosmik sənayenin yaradılmasını Ümummilli lider Heydər Əliyevin adı ilə bağlı olduğunu nəzərə çatdırıb. Müstəqil ölkəmizin kosmik sənayesi isə Ulu Öndərin ideyalarının layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham





Əliyevin rəhbərliyi altında sürətlə inkişaf edib, bu sahədə bir sıra uğurlara imza atılıb. Ölkə başçısının "Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramının təsdiq edilməsi haqqında" 2009-cu il 17 avqust tarixli Sərəncamı bu sahəyə göstərilən diqqətin bariz nümunəsidir. 2010-cu il mayın 3-də Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin nəzdində (indiki Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin) Qafqazda əsas peyk operatoru olan "Azərkosmos" Açıq Səhmdar Cəmiyyəti təsis edilib. Ölkədə fəaliyyət göstərən Milli Aerokosmik Agentliyi ölkəmizin müdafiə qüdrətinin möhkəmlənməsinə, peyk kəşfiyyatı, naviqasiya rabitəsi, həmçinin ekoloji problemlərin və mülki təyinatlı məsələlərin həllinə öz töhfəsini verməkdədir.

*E.Babayev çıxışında ölkə başçısı İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən uğurlu siyasət nəticəsində digər sahələrlə yanaşı, kosmik sənaye sahəsində də bundan sonra da bir çox uğurlara imza atılacağını, doğma Azərbaycanımızın adının qabaqcıl kosmik ölkələr sırasında olacağına əminliyini ifadə edib.*

Daha sonra "Azərkosmos" ASC sədrinin müavini Dunay Bədirxanovun "Azərbaycanın peykləri", Xəzər Universiteti EILINK Tədqiqat və İnkişaf Mərkəzinin baş məsləhətçisi Rüstəm Rüstəmovun "Tərsinə Astronomiya - məsafədən duyma və coğrafi məlumat sistemi", AMEA-nın Geologiya və Geofizika İnstitutunun baş elmi işçisi Fuad Hacızadənin "Azərbaycanda aerokosmik tədqiqatlar", Milli Aviasiya Akademiyasının doktorantı Sona Quliyevanın "Aerokosmik sahədə Milli Aviasiya Akademiyasının fəaliyyəti", Milli Aviasiya Akademiyasının tələbəsi Sərxan Ağadaşovun "Qlayder - peyk tipli uçan aparat layihəsi", dizayner və fotoqraf, həvəskar astronom, Azərbaycan Astroklubunun üzvü Faiq Nağıyevin "Azərbaycanda astrofotoqrafiya: Kosmos fotolarda" mövzusunda məruzələri dinlənilib.

# "İrqi ayrı-seçkiliyin ləğv edilməsi" adlı tədbir keçirilib

***Hüquq fakültəsi Tələbə Gənclər Təşkilatının (TGT) təşkilatçılığı ilə "İrqi ayrı-seçkiliyin (diskriminasiyanın) ləğv edilməsi" adlı onlayn tədbir keçirilib. Tədbiri giriş sözü ilə açan fakültə üzrə TGT sədri Firavan Əlizadə tədbir iştirakçılarını salamlayaraq mövzunun əhəmiyyəti və aktuallığı barədə məlumat verib.***

Hüquq fakültəsinin İnsan hüquqları və informasiya hüququ üzrə UNESCO kafedrasının müəllimi Aygün Cəbiyeva "İrqi ayrı-seçkiliyin (diskriminasiyanın) ləğv edilməsi" mövzusunda çıxış edərək, irqi ayrı-seçkiliyin mahiyyəti barədə iştirakçılara məlumat verib. Seminarda nəzəri və praktiki məsələlər müzakirə olunub, beynəlxalq sənədlərə istinad edilərək konvensiyalardan irqi ayrı-seçkiliyin bütün formalarının ləğvinə dair sitatlar gətirilib.

Daha sonra fakültənin tələbələri Tural Həsənov "İrqçilik tarixi - insan hüquqlarının pozulması təzahürü kimi", Siyavuş Bağırov "Diskriminasiya ilə mübarizə şəkillərdə" və Mədinə Tahirli "İrqi ayrı-seçkilik və beynəlxalq hüquq" mövzularında təqdimatla çıxış ediblər. Çıxışlarda irqi ayrı-seçkilik müxtəlif tarixi dövrlərə nəzərən təhlil edilib, müxtəlif filosofların mövzu ilə bağlı düşüncələrindən, dünyanın müxtəlif universitetlərinin araşdırmalarından bəhs olunub.

# BDU-nun müəllimi qış məktəbində iştirak edib

***Bakı Dövlət Universitetinin Zoologiya və fiziologiya kafedrasının müəllimi Sevinc Məmmədova İstanbul Universitetinin Genetika klubunun təşkilatçılığı ilə keçirilən XVIII Beynəlxalq Molekulyar biologiya və genetika qış məktəbində iştirak edib.***

Qış məktəbi biologiya və tibb elmləri sahəsində tədqiqat aparan gənc alim və mütəxəssislər, həmçinin magistrant, doktorant və dissertantlar üçün nəzərdə tutulub. Gənc bioloqların elmi biliklərinin təkmilləşdirilməsinə, həmçinin onların gələcək fəaliyyətlərinin istiqamətləndirilməsinə xidmət edən layihənin proqramında yeni elmi prioritetlərə dair elmi ustad dərslər, maraqlı elmi məruzələr, elmi disputlar həyata keçirilib.

S.Məmmədova qış məktəbində ABŞ, Böyük Britaniya, İsrail, Fransa, Türkiyədə fiziologiya, neyroelmlər və toksikologiya üzrə tanınmış alimlərin mühazirələrini dinləyib və müzakirələrdə iştirak edib.

# BDU-nun Elmi kitabxanasına kitablar hədiyyə olunub

***Azərbaycan Beynəlxalq Bankı tərəfindən bankın korporativ sosial məsuliyyət layihəsi çərçivəsində Bakı Dövlət Universitetinin Elmi Kitabxanasına Massaçusetst Texnologiya İnstitutunun professoru Conatan Qruberin Azərbaycan dilinə tərcümə edilərək nəşr olunan "Dövlət maliyyəsi və dövlət siyasəti" kitabının nüsxələri hədiyyə edilib.***



Professor Conatan Qruberin "Dövlət maliyyəsi və dövlət siyasəti" kitabı mövzu üzrə ən mükəmməl dərsliklərdən sayılır. Kitabdan dünyanın aparıcı universitetlərində tədris prosesində fundamental mənbə kimi geniş istifadə edilir. Dərslik müasir dövrün reallıqlarına aid dərin təhlillərlə, maraqlı faktlarla zəngindir. Kitabda əksini tapmış nəzəri yanaşmalar, əsaslı dəlillər dövlət maliyyəsi və dövlət siyasəti ilə bağlı dolğun təsəvvür yaradır.

***

***Çin və Azərbaycan arasındakı diplomatik əlaqələrin 29-cu ildönümü və 23 Aprel - Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü münasibətilə Çin Xalq Respublikasının ölkəmizdə fövqəladə və səlahiyyətli səfiri Qo Min Bakı Dövlət Universitetinin Elmi Kitabxanasına 214 adda 248 nüsxə kitab hədiyyə edib.*** Universitetin nəzdində fəaliyyət göstərən Konfutsi İnstitutunun vasitəçiliyi ilə təqdim edilən bu kitablar Çinin tarix, fəlsəfə, elm, siyasət, texnika, iqtisadiyyat və mədəniyyət sahələrindən bəhs edir. Ölkələrarası mədəni əlaqələrin genişlənməsi və möhkəmlənməsi məqsədilə oxuculara təqdim edilən kitablarda Qədim Şərqin zəngin mədəniyyət və tarixi, eləcə də müasir Çinin əsas inkişaf ənənələri əks olunub.




# BDU-da ölkənin aparıcı kitabxanalarının iştirakı ilə tələbə elmi konfransı keçirilib

***Kitabxanaçılıq-informasiya fakültəsində BDU-nun Elmi Kitabxanası, M.F.Axundov adına Milli Kitabxana, AMEA-nın Mərkəzi Elmi Kitabxanası, ADA Universiteti Kitabxanası və Azərbaycan Dövlət İqtisad Universitetinin Kitabxana İnformasiya Mərkəzi ilə birgə "Elektron katoloq - yüksək texnologiyaların nəticəsi kimi" mövzusunda tələbə elmi konfransı keçirilib.***

Elmi konfransı giriş sözü ilə açan BDU-nun Elmi fəaliyyətin təşkili və innovasiyalar Mərkəzinin direktoru, professor Mais Süleymanov bildirib ki, bu gün Universitetdə elmi-tədqiqat işlərinin məzmununun yenilənməsi istiqamətində mühüm addımlar atılır, bu istiqamətdə həyata keçirilən islahatlar və müəyyənləşdirilmiş inkişaf strategiyasının təhlili BDU yaxın gələcəkdə təhsilin səviyyəsinə və elmi tədqiqatların məzmununa görə beynəlxalq reytinq agentliklərinin siyahısında daha ön yerləri tutacağını, nüfuzlu tədqiqat universitetinə çevriləcəyini deməyə əsas verir. Keçirilən konfransın tələbələrdə elmi fəaliyyətə böyük maraq yaradacağını bildirən Mais Süleymanov konfransın işinə uğurlar arzulayıb.



Sonra Kitabxanaçılıq-informasiya fakültəsinin dekan vəzifəsini icra edən Ələmdar Cabbarlı konfrans haqqında ətraflı məlumat verib. Ə.Cabbarov konfransın keçirilməsində məqsədin kitabxana-informasiya fəaliyyətində əsas element olan elektron kataloqların və avtomatlaşdırma proseslərinin müasir vəziyyətini və perspektivlərini araşdırmaq, eyni zamanda tələbələrdə elmi tədqiqata marağın artırılması, onlarda nəzəri biliklərlə yanaşı təcrübi biliklərin də formalaşdırılması baxımından bu istiqamətdə olan elmi nəticələri müzakirə etmək olduğunu qeyd edib.

Konfransda tələbələr "M.F.Axundov adına Milli Kitabxanada avtomatlaşdırma proseslərinin müasir vəziyyəti və istifadə səmərəliliyi", "AMEA MEK-də avtomatlaşdırma proseslərinin müasir vəziyyəti və elektron kataloqun axtarış imkanları", "BDU-nun Elmi Kitabxanasında avtomatlaşdırma proseslərinin tarixi təkamülü və müasir vəziyyəti", "ADA Universiteti Kitabxanasında elektron resurslarla xidmət və elektron kataloqun istifadə səmərəliliyi" və "UNEC Kitabxana İnformasiya Mərkəzində avtomatlaşdırma prosesləri və elektron kataloq" mövzularında təqdimatla çıxış ediblər.

Çıxış edənlər - Milli Kitabxananın direktoru, professor Kərim Tahirov, AMEA-nın Mərkəzi Elmi Kitabxanasının direktoru, professor Məmməd Əliyev, BDU-nun Elmi Kitabxanasının direktoru Nigar İsmayılova, ADA Universiteti Kitabxanasının direktoru Elçin Məmmədov, ADİU Kitabxana İnformasiya Mərkəzinin direktoru Adilə Abdullayeva, BDU-nun kitabxanaçılıq-informasiya fakültəsinin kafedra müdirləri Elçin Əhmədov, Knyaz Aslan, Sevda Xələfova, tədbirin moderatoru, elmi işlər üzrə dekan müavini Zahidə Rzayeva və fakültə Tələbə Elmi Cəmiyyətinin elmi rəhbəri Rəşad Qardaşov konfransın əhəmiyyətindən bəhs edib, təşkilatçılığa və yüksək səviyyədə dəstəyə görə Universitet rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

# Kitabxanaçılıq-informasiya fakültəsində "Şanlı tarix salnaməsi" adlı tədbir

***Kitabxanaçılıq-informasiya fakültəsində Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) təşkilatçılığı ilə Aprel döyüşlərinə həsr edilmiş "Şanlı tarix salnaməsi" adlı onlayn tədbir keçirilib.*** Tədbirdə Şəhid ailələri - Leytenant Sənan Məmmədlinin anası Rəsmiyyə Məmmədli, Şəhriyar Mirişlinin anası Mətanət Mirişli iştirak edib. Çıxışlarda qəlbən, ruhən Vətənə bağlı olan oğullarımızın, qəhrəmanlarımızın hər zaman Azərbaycan uğrunda canlarından keçməyə hazır olduğu, şəhidlik zirvəsinə yüksəldildiyi bildirilib.

Tədbirdə ikinci Qarabağ müharibəsi və Aprel döyüşləri iştirakçısı Hafiz Əhmədov çıxış edərək həyatın bütün mərhələlərində vətənpərvərlik duyğusunun vacib olduğunu qeyd edib. Kitabxanaçılıq-İnformasiya fakültəsinin THİK sədr müavini Rahidə Qarayeva və fakültənin 1-ci kurs tələbəsi Nərgiz Həşimzadə çıxış edərək ulu babalarımızın əmanəti olan Vətənin onların sonrakı davamçıları tərəfindən də sevilib, qorunub, bizə əmanət edildiyini və bu gün də azad, bütöv Azərbaycan olaraq gələcək nəsillərə miras olduğunu nəzərə çatdırıblar.

Tədbir BDU-nun Kitabxanaçılıq-İnformasiya fakültəsinin dekanı vəzifəsini icra edən Ələmdar Bayramov, dekan müavini Mehmanəli Məmmədov və Biblioqrafiyaşünaslıq kafedrasının müdiri Nadir İsmayılovun çıxışları ilə yekunlaşıb.

# Ekologiya və torpaqşünaslıq fakültəsində elmi seminar

***Ekologiya və torpaqşünaslıq fakültəsində növbəti onlayn elmi seminar keçirilib.***

Seminarda Ekologiya və torpaqşünaslıq fakültəsinin dekanı professor Nazim Şəmilov, Ekoloji kimya kafedrasının müdiri professor Sevinc Hacıyeva, doktorantlar magistrlər və fakültənin digər əməkdaşları iştirak edib.

Seminarda Ekoloji kimya kafedrasının doktorantı Elmina Qədirova "Bəzi metal üzvi birləşmələrdən istifadə etməklə avtonəqliyyat vasitələrinin və neft emalı sənayesinin yaratdığı ekoloji problemlərin həllinin elmi əsaslarının işlənib hazırlanması" mövzusunda məruzə edib. Məruzədə mövcud ekoloji vəziyyətin təhlili verilib, bəzi metal üzvi birləşmələrdən istifadənin yaratdığı ekoloji problemlər, ətraf mühitin mühafizəsinin təkmilləşdirilməsi sahəsinin gələcək inkişaf perspektivləri kontekstində tədqiqatın nəticələri təqdim edilib.

# Şərqşünaslıq fakültəsində "Urdu dilində danışıq klubu" adlı vebinar

***Aprelin 12-də Şərqşünaslıq fakültəsi və Pakistanın Azərbaycandakı səfirliyinin birgə təşkilatçılığı ilə Zoom platforması üzərindən "Urdu dilində danışıq klubu" adlı vebinar keçirilib.***



Görüşdə Pakistanın Azərbaycandakı səfiri Bilal Hayee, Şərqşünaslıq fakültəsinin urdu dili müəllimləri - Eldost İbrahimov, Amalya Paşayeva, fakültənin dekan müavinləri Nigar İsmayılzadə, Tərlan Məlikov və Şahin Yusifli, urdu dili ixtisası üzrə təhsil alan tələbələr və Azərbaycanın müxtəlif universitetlərində təhsil alan pakistanlı tələbələr iştirak edib.

Səfir Bilal Hayee Azərbaycan-Pakistan dostluq əlaqələrindən danışaraq, urdu dili öyrənən tələbələrin də bu əlaqələrə töhfə verəcəyinə inandığını bildirib.

Vebinarda çıxış edən Şərqşünaslıq fakültəsinin urdu dili müəllimi Eldost İbrahimov Azərbaycan-Pakistan əlaqələrinin tarixi köklərinə toxunub, BDU haqqında məlumat verib.

Vebinarda urdu dili ixtisası üzrə təhsil alan tələbələr çıxış edib. Sonda səfir Bilal Hayee iştirakçıların suallarını cavablandırıb, mövzu ətrafında fikir mübadiləsi aparılıb.

# Jurnalistika fakültəsinin 2 müəllimi AzTV-nin Bədii Şurasına üzv seçilib

***Jurnalistika fakültəsinin dekanı Vüqar Əliyev və fakültənin müəllimi, Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin nəzdində yaradılan Bədii Şuranın üzvü seçiliblər.***



QSC sədri Rövşən Məmmədovun rəhbərliyi ilə Şuranın ilk iclası keçirilib. Sədr yeni layihələrlə bağlı məlumat verərək bildirib ki, Şuranın əsas vəzifəsi şirkətin televiziya kanallarının işinin monitorinqini aparmaq, mövcud çatışmazlıqları müzakirə edərək təkliflər verməkdir. Sədr R.Məmmədov "AzTV", "Mədəniyyət" və "İdman" kanallarında yayımlanan verilişlərin daha effektiv olması məqsədilə Bədii Şura üzvlərinin müxtəlif bölgələrdə ictimaiyyətlə görüşlər keçirilməsinin əhəmiyyətini vurğulayıb. Daha sonra Bədii Şuranın yeni üzvləri təkliflərini səsləndiriblər.

Koronavirus pandemiyası ilə əlaqədar Bədii Şuranın iclaslarının ayda bir dəfə keçirilməsi nəzərdə tutulub.

"Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin Bədii Şurasına Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar, Xalq yazıçısı Kamal Abdulla, Xalq artisti Rasim Balayev, Xalq artisti Ofeliya Sənani, Xalq artisti Eldar Mansurov, Əməkdar incəsənət xadimi İlham Rəhimli daxildir.

# Jurnalistika fakültəsində "Molla Nəsrəddin" jurnalının 115 illiyi münasibətilə dəyirmi masa keçirilib

***Aprelin 2-də Jurnalistika fakültəsində "Molla Nəsrəddin" jurnalının 115 illiyi ilə bağlı onlayn dəyirmi masa keçirilib.***




Fakültənin dekanı Vüqar Əliyev "Molla Nəsrəddin" jurnalının qısa müddət ərzində böyük nüfuz qazanması, təkcə Azərbaycanda deyil, bütün Yaxın və Orta Şərqdə demokratik və satirik mətbuatın inkişafına mühüm töhfələr verdiyinə diqqət çəkərək bu sahədə yeni səhifə açmış jurnalın önəmindən bəhs edib. Fakültənin dekan müavini Samir Mirzəyev "Molla Nəsrəddin" jurnalının milli mətbuat tariximizdəki rolundan, satirik jurnalistikanın formalaşmasındakı əhəmiyyəti haqqında məlumat verib.

Daha sonra Multimedia və elektron kommunikasiya kafedrasının müdiri, professor Allahverdi Məmmədli Cəlil Məmmədquluzadənin həyat və yaradıcılığı, "Molla Nəsrəddin" jurnalının fəaliyyəti ilə bağlı geniş məruzə ilə çıxış edib. Natiq görkəmli publisistin jurnalı yaratmaqla satirik publisistikanın, eyni zamanda satirik qrafika və karikaturanın əsasını qoyduğunu bildirərək, Azərbaycan mətbuatının inkişafında müstəsna rol oynadığını tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Yeni media və kommunikasiya nəzəriyyəsi kafedrasının müdiri, professor Cahangir Məmmədli jurnalın dövrümüz üçün müasir olduğunun əhəmiyyətini diqqətə çatdırıb, Beynəlxalq jurnalistika və informasiya siyasəti kafedrasının müdiri, professor Həmid Vəliyev isə "Molla Nəsrəddin" jurnalının Tiflis nəşrləri barədə məlumat verib.

Professorlar Nəsiman Yaqublu, Qulu Məhərrəmli, Nəsir Əhmədli, Sabir Məmmədli, dosent Aygün Əzimova jurnalın 115 illiyi münasibəti ilə tədbir iştirakçılarını təbrik edərək, görkəmli publisist C.Məmmədquluzadə və satirik jurnalla bağlı fikirlərini bölüşüblər.

# Biologiya fakültəsində "Çağırır Ana Vətən!" adlı onlayn tədbir

***Aprelin 13-də Biologiya fakültəsində Tələbə Gənclər Təşkilatının təşkilatçılığı ilə "Çağırır Ana Vətən!" adlı onlayn tədbir keçirilib.***

Tədbiri giriş sözü ilə açan Biologiya fakültəsinin dekanı vəzifəsini icra edən Səbinə Ömərova qonaqları salamlayıb, tədbirin əhəmiyyətindən və Vətən müharibəsində iştirak edən qəhrəmanlarımızın rəşadətindən bəhs edib. S.Ömərova bildirib ki, ölkəmizdə Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə başlayan ordu quruculuğu prosesi bu gün Ali Baş Komandan, Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Müzəffər ordumuzun torpaqlarımızın azadlığı uğrunda göstərdiyi şücaətin əsl qəhrəmanlıq nümunəsi olduğunu diqqətə çatdırıb.

Sonra Biologiya fakültəsinin dekan müavini Musa Cabbarov belə tədbirlərin keçirilməsinin gənc nəslin milli vətənpərvərlik ruhunda yetişməsinə böyük təsir göstərdiyini vurğulayıb.

Tədbirdə şəhid ailələri - General Polad Həşimovun bacısı Kəmalə Həşimova, mayor Urfan Vəlizadənin bacısı Xuraman Vəlizadə, şəhid XTQ əsgəri Emin Bağırovun qardaşı Yaqub Bağırov, şəhid gizir Əşrəf Məmmədlinin bacısı Gülövşə Məmmədli, qazilərimiz - Mobil Əhmədzadə, Vasif Allahverdiyev, Afiəddin Əliyev, Vətən müharibəsi iştirakçısı Nurlan Məmmədrəhimov iştirak edib, xatirələrini bölüşüblər.

Tədbir bədii hissə ilə davam edib, tələbələrin hazırladığı videoçarx nümayiş olunub.

# "Nizami yaradıcılığında didaktik motivlər" mövzusunda elmi seminar

***Filologiya fakültəsində Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kafedrasının təşkilatçılığı ilə "Nizami yaradıcılığında didaktik motivlər" mövzusunda onlayn elmi seminar keçirilib.*** "Türkoloji araşdırmalar" ETL-in elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Ramil Bayramovun moderatorluğu ilə keçirilən tədbiri giriş sözü ilə açan Filologiya fakültəsinin elmi işlər üzrə dekan müavini, dosent Mehriban Əlizadə "Nizami ili" çərçivəsində təşkil olunmuş seminarın mövzusunun əhəmiyyətindən danışaraq dahi şairin yaradıcılığında əxlaqi-mənəvi dəyərlərin təbliği ilə bağlı məsələlərdən bəhs edib..



Sonra Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kafedrasının əməkdaşları - professor Mətanət Abdullayeva "Xəmsə" əxlaqi-mərifət kodeksi kimi", dosent Əhəd Cavadov isə "Sirlər xəzinəsi"ndə Nizaminin dünyaya baxışı" adlı məruzələrlə çıxış ediblər.

Məruzələrdən sonra çıxış edən dosent Məhbubə Qurbanova Nizami yaradıcılığında qadın obrazları ilə əlaqəli mühüm didaktik məsələlərə diqqət çəkib, belə ədəbi faktların gənc nəslə aşılanmasının əhəmiyyətini vurğulayıb. Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kafedrasının müdiri professor Hüseyn Əsgərov Nizami Gəncəvi irsinə dövlət başçısı səviyyəsində göstərilən yüksək diqqət və qayğının əhəmiyyətindən söz açıb, məruzəçilərə və iştirakçılara minnətdarlığını bildirib.

Tədbirdə III kurs tələbələri - Nəzrin Mirzəli N.Gəncəvinin "Yenə tövbə evimi eşq xərab etmədədir" və Fidan Abdinova "Afərin hüsnünə mən bir belə dilbər istərəm", I kurs tələbəsi Rəhiməxanım Əlipənahova isə "Min sevincə dəyişmərəm uğrundakı bircə qəmi" qəzəllərini səsləndiriblər.

# "Gənc istedadlar" liseyində şagirdlərin dərsə davamiyyəti 90%-dir



***Bakı Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən "Gənc istedadlar" liseyində dərslər onlayn formada Microsoft Teams platforması üzərindən uğurla davam etdirilir.*** Dərslər ənənəvi dərs cədvəlinə uyğun olaraq təşkil edilir. Liseyinin müəllimləri müxtəlif beynəlxalq tədris proqramlarından, yeni təlim texnologiyalarından istifadə etməklə dərs prosesini təşkil edirlər.

Liseydə 5-9 siniflər üzrə şagirdlərin onlayn dərslərə davamiyyəti 90-100%, 10-11 sinif üzrə isə 70-75% təşkil edir. Dərslərin təşkilinə birbaşa direktor və direktor müavinləri, sinif rəhbərləri nəzarət edir.

# "Chlorella: metabolizmin məqsədyönlü idarə edilməsi" mövzusunda elmi seminar

***Biologiya fakültəsinin "Biomühəndislik" elmi-tədqiqat laboratoriyasında "Chlorella: metabolizmin məqsədyönlü idarə edilməsi" mövzusunda növbəti onlayn elmi seminarı keçirilib.*** Seminarda Biologiya fakültəsinin professor-müəllim heyəti, doktorant və magistrlar iştirak edib.

"Biomühəndislik" ETL-nin kiçik elmi işçisi, doktorant Günel Mehdiyeva "Chlorella vulgaris mikroyosun hüceyrələrində müxtəlif birləşmələrin depolanması məqsədi ilə metabolizmin idarəsi metodları" mövzusunda çıxış edib. Çıxışda bu hüceyrə kulturasından əldə edilə biləcək birləşmələrdən və onların sənayenin müxtəlif sahələrində praktik əhəmiyyətindən bəhs edilib.

Seminarda dünya üzrə gələcək perspektivi olan sənayi əhəmiyyətə malik Algo-Refinery konsepsiyası müzakirə edilib.

# “Şəhidlərimizə və qazilərimizə qayğı dövlətimizin sosial siyasətinin prioritet istiqamətidir" adlı tədbir keçirilib

***Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsində Tələbə Gənclər Təşkilatının (TGT) təşəbbüsü ilə "Şəhidlərimizə və qazilərimizə qayğı dövlətimizin sosial siyasətinin prioritet istiqamətidir" adlı onlayn tədbir keçirilib.***

Tədbirdə tələbələr Fidan Omarova, Nigar Allahverdiyeva, Neymət Ağazadə çıxış edərək şəhid ailələrinin və müharibə iştirakçılarının sosial təminatının gücləndirilməsi işinin uğurla həyata keçirilən sosial siyasətin prioritet istiqamətlərindən olduğunu bildiriblər, torpaqlarımızın düşmən işğalından azad olunmasında qəhrəmanlıq göstərmiş bütün döyüşçülərimizə diqqət və qayğı ilə yanaşıldığından bəhs ediblər.

Sonda Tarix fakültəsinin müəllimi Xumar Səfərova çıxış edərək şəhid ailələrinə və müharibə iştirakçılarına göstərilən dövlət qayğısı və bu istiqamətdə həyata keçirilən layihələrdən danışıb.

# Hüquq fakültəsində növbəti Hüquq Müzakirə Forumu

Hüquq fakültəsində növbəti Hüquq Müzakirə Forumu keçirilib. Forumda Azərbaycan Respublikası Mərkəzi Bankının hüquq məsləhətçisi, BDU-nun Korporativ hüquq və idarəetmə fənni üzrə müəllimi Fərahim Hüseynzadə “Çirkli pulların yuyulması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə” mövzusunda məruzə ilə çıxış edib. Çıxışda çirkli pulların yuyulması (PL), terrorçuluğun maliyyələşdirilməsi (TM), kütləvi qırğın silahları anlayışı və sözügedən anlayışların hüquqi sənədlərdə təsbiti, eləcə də beynəlxalq səviyyədə maliyyə cinayətləri ilə mübarizə tədbirləri, maliyyə institutlarının PL/TM mübarizə sahəsindəki rolu və risk əsaslı yanaşmanın tətbiqinə dair mövzular barədə geniş məlumat verilib.






Forumda eyniləşdirmə tədbirlərinin həyata keçirilməsinə və şübhəli əməliyyatların maliyyə institutları tərəfindən bildirilməsinə dair yerli və beynəlxalq hüquq normalarının tətbiqi imkanları ətrafında müzakirələr aparılıb.

# Tarixi Abidələrin Mühafizəsi Günü qeyd olunub

***Tarix fakültəsinin təşkilatçılığı ilə 18 Aprel - Tarixi Abidələrin Mühafizəsi Gününə həsr olunmuş tədbir keçirilib. BDU-nun Tarix fakültəsinin dekan müavini dosent Bəxtiyar Nəbiyev tədbiri giriş sözü ilə açaraq bu günün qeyd olunmasının tarixi barədə məlumat verib, ölkə başçısı İlham Əliyevin böyük diqqət və qayğısı sayəsində ölkəmizdə tarixi abidələrin mühafizəsi və regional və beynəlxalq çərçivədə təbliğindən bəhs edib.***



Sonra Tarix fakültəsinin dekanı vəzifəsini icra edən İbrahim Zeynalov çıxış edərək son illərdə ölkəmizdə tarixi abidələrin bərpası və qorunması istiqamətində layihələrin icra olunmasından, abidələrin qorunması və gələcək nəsillərə çatdırılması istiqamətində Azərbaycan Respublikasının Prezdenti İlham Əliyev, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın ölkə daxilində və xaricdə gördüyü işlərdən danışıb.

Tarix fakültəsinin Arxeologiya və etnoqrafiya kafedrasının dosenti, tarix elmləri doktoru Tarix Dostiyev məruzə ilə çıxış edərək ölkəmizdə yaşı əsrlərlə və minilliklərlə ölçülən tarixi abidələrimizin, Azıx mağarasından tapılmış alt çənə sümüyü, Qobustan, Tağlar, Damcılı qədim yaşayış məskənlərinin olmasını təsdiqləyən elementlər haqqında məlumat verib.

Sonda çıxış edən BDU-nun tarixi muzeyinin əməkdaşı Arzu Əkbərova BDU-nun nəzdində fəaliyyət göstərən muzeylərdə saxlanılan tarixi eksponatlar haqqında məlumat verib.

# “Məişətdə baş verən neqativ hallara qarşı mübarizə" mövzusunda tədbir

***Sosial elmlər və psixologiya fakültəsində "Məişətdə baş verən neqativ hallara qarşı mübarizə" mövzusunda dəyirmi masa keçirilib. Tədbirdə məişətdə neqativ hallar, məişətdə yaranan problemlər, problemlərin həlli yolları müzakirə edilib.***

Tədbiri giriş sözü ilə dekan müavini dosent İranə Məmmədli açaraq bu istiqamətdə gənclərin maarifləndirilməsində təhsil ocaqlarının rolundan bəhs edib. Maarifləndirmə işlərinin və nəzarət mexanizmlərinin gücləndirilməsinin vacibliyini vurğulayıb. Sonra Sosial və pedaqoji psixologiya kafedrasının müəllimi Şahnaz Aslanova, Sosial iş kafedrasının müdiri dosent Üzeyir Şəfiyev bu istiqamətdə cəmiyyətdə həyata keçirilən tədbirlərin effektivliyinin yoxlanılması, riskli ailələrin müəyyən edilməsi və lazımi dəstəyin göstərilməsi və təhlil edilməsi, xüsusi ilə də baş vermiş ağır zorakılıq hallarının müzakirəsi üzrə fəaliyyətlərin əlaqələndirilməsi haqqında geniş məlumat verib.

# BDU-da onlayn dərslər uğurla təşkil olunur

***Bakı Dövlət Universitetində onlayn dərslər uğurla davam etdirilir. Bakalavriat və magistratura səviyyələri üzrə, "Microsoft Teams” platforması üzərindən mühazirələr təşkil olunur, ev tapşırıqları verilir, mühazirə və digər elektron dərs materiallarının tələbələrə ötürülməsini təmin etmək məqsədilə sistemə əlavə edilir.*** Fərdi və ya qrup şəklində onlayn müəllim-tələbə ünsiyyəti keçirilən materialların daha dərindən mənimsənilməsinə imkan yaradır. Tələbələr dərslərin video qeydiyyatından səmərəli yararlanırlar.

Platformanın verdiyi geniş imkanlardan istifadə edərək müvafiq mərkəzlər, fakültə dekanlığı və kafedra əməkdaşları arasında onlayn müzakirələr və dərslərin fənn proqramlarını əhatə etməsinə nəzarət həyata keçirilir. Eyni zamanda 2020/2021-ci tədris ilində məzun olacaq tələbələrə yekun dövlət imtahanı üçün ayrılan sualların izah edilməsi, buraxılış işləri və magistr dissertasiyaları ilə bağlı elmi məsləhətləşmələrin aparılması davam etdirilir.

Eyni zamanda, Azərbaycan Respublikası Təhsil Nazirliyinin 2021-ci il 15 fevral tarixli məktubuna müvafiq olaraq bakalavriat səviyyəsi üzrə Kimya, Biologiya, Fizika, Ekologiya və torpaqşünaslıq, Geologiya fakültələri üzrə laboratoriya dərsləri, Şərqşünaslıq fakültəsi üzrə praktiki fənlərlə bağlı məşğələ dərsləri könüllülük əsasında ənənəvi formada təşkil olunur. Ümumilikdə, 170 qrup üzrə 3500 tələbə ənənəvi formada tədris prosesinə cəlb edilib.

Tələbələrin 95%-dən çoxu ənənəvi və onlayn formada təşkil olunan dərslərdə aktiv şəkildə iştirak edir.

# “Milli-mənəvi dəyərlər” mövzusunda tədbir

***Hüquq və Filologiya fakültələrinin birgə təşkilatçılığı ilə “Milli-mənəvi dəyərlər” mövzusunda onlayn tədbir keçirilib.***

Hüquq fakültəsinin dekanı Əmir Əliyev milli-mənəvi dəyərlər mövzusunda keçirilən tədbirlərin vacibliyini vurğulayıb, gənc nəslin bu dəyərlərin qorunmasında aktiv iştirakının önəmindən bəhs edərək cəmiyyətin inkişafında milli-mənəvi dəyərlərin rolunu yüksək qiymətləndirib.

Daha sonra Hüquq fakültəsinin dekan müavini Aytəkin İbrahimova, Filologiya fakültəsinin dekan müavini Anar Fərəcov, Hüquq fakültəsinin Cinayət hüququ və kriminologiya kafedrasının dosenti Məleykə Bayramova, Filologiya fakültəsinin Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrasının dosenti Könül Həsənovanın mövzu ilə bağlı məruzələri dinlənilib.

Məruzələrdə əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş dövlət-din münasibətlərinin inkişaf etdirilməsi istiqamətində aparılan işlər, ölkəmizin inkişafında və milli-mənəvi dəyərlərin zənginləşdirilməsində həyata keçirilən tədbirlər haqqında məlumat verilib, Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin müdrikliklə irəli sürdüyü Azərbaycançılıq ideologiyasının həyat tərzində, əxlaqda, mənəviyyatda, dildə, dində, ədəbiyyatda, bir sözlə, maddi və mənəvi mədəniyyətimizin bütün sahələrində istiqamətləndirici məfkurəmiz olduğunu diqqətə çatdırıblar.

ələbə Gənclər Təşkilatının Hüquq fakültəsi üzrə sədri Firavan Əlizadənin moderatorluğu ilə keçirilən tədbirdə hər iki fakültənin tələbələri - Siyavuş Bağırov, Səma Qasımova, Nərminə Xanəliyeva və Laləzar Sərxanova ölkəmizdə milli-mənəvi dəyərlərə bağlı məruzə ilə bağlı çıxış ediblər.

# “Narkomaniya - ictimai bəladır”

***Sosial elmlər və psixologiya fakültəsinin Pedaqogika və psixologiya kafedrası və "Gənc istedadlar" Liseyinin birgə təşkilatçılığı ilə “Narkomaniya - ictimai bəladır” adlı vebinar keçirilib.*** Vebinarda təhsil müəssisələrində psixoloji və pedoqoji fəaliyyətin təkmilləşdirilməsi, məktəb psixoloqları üçün narkomanlıq problemi mövzusunda çıxışlar dinlənilib.

Çıxışlarda narkotik vasitələrə aludəçiliyin cinayətkarlıq, zorakılıq və digər mənfi halların yaranmasına zəmin yaratdığı qeyd edilib, narkomaniya ilə mübarizə yolları diqqətə çatdırılıb. Bildirilib ki, belə maarifləndirmə tədbirlərinin davamlı olaraq keçirilməsi narkomaniya ilə mübarizə işinə, xüsusilə gənclər arasında bu bəlanın yayılmasının qarşısının alınmasında səmərəli kömək edə bilər.

# BDU əməkdaşları vaksinasiya olunub





***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 16 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında COVID-19 xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün Vaksinasiya Strategiyası"na əsasən bu gün də Bakı Dövlət Universitetində əməkdaşların vaksinasiyası uğurla həyata keçirilib.***

BDU əməkdaşları könüllü şəkildə məntəqəyə gələrək xüsusi karantin rejiminin tələblərinə ciddi riayət etməklə vaksinasiya olunublar. Əməkdaşlar üçün bütün zəruri avadanlıq və şəraitlə, dezinfeksiyaedici məhlullarla təmin edilmiş gözləmə və istirahət otaqları yaradılmışdır.

BDU-nun müraciətini nəzərə alaraq TƏBİB Universitetin ərazisindəki poliklinikada səyyar vaksinasiya məntəqəsi yaradıb. Poliklinikada 2 qeydiyyat, 2 müayinə, 2 vaksinasiya otağı ən zəruri tibbi ləvazimat və müvafiq şəraitlə təmin olunub. Vaksinasiyanı TƏBİB-in peşəkar həkim briqadası həyata keçirib.

## Qars Qafqaz Universitetinin professoru Hacalı Nəcəfoğlu ilə onlayn görüş keçirilib

***Aprelin 20-də Kimya fakültəsi Tələbə Elmi Cəmiyyətinin təşəbbüsü ilə Kimya fakültəsinin məzunu - Türkiyənin Qars Qafqaz Universitetinin Beynəlxalq əlaqələr departamentinin müdiri, kimyaçı alim, professor Hacalı Nəcəfoğlu ilə onlayn görüş keçirilib.***

Kimya fakültəsinin dekanı Abdülsəyid Əzizov Hacalı Nəcəfoğlunun elmi fəaliyyətləri haqqında tədbir iştirakçılarına məlumat verib. Professor Hacalı Nəcəfoğlu "Türkün qan yaddaşı: kristallar və naxışlar" mövzusunda məruzə ilə çıxış edib. Məruzədə kristalların quruluşu, sənətkarlıq və memarlıqda istifadəsi, naxış və maddənin quruluşu arasındakı əlaqədən bəhs olunub.

Görüşdə Kimya fakültəsinin dekan müavinləri Fuad Kərimli, Taleh Qəhrəmanov, professorlar - Teymur İlyaslı, Oqtay Əkbərov, İbrahim Məmmədov, Elçin Əkbərov, Rasim Alosmanov, Famil Çıraqov iştirak ediblər.

Tədbir tələbələrin suallarının cavablandırılması ilə başa çatıb.

## Kimya fakültəsində "Nizami Gəncəvi Xəmsəsi" adlı tədbir keçirilib

***Aprelin 21-də Kimya fakültəsində Tələbə Gənclər Təşkilatının (TGT) təşkilatçılığı ilə "Nizami ili"nə həsr olunmuş "Nizami Gəncəvi Xəmsəsi" adlı onlayn tədbir keçirilib. Fakültənin TGT sədri Əli Qədirli iştirakçıları salamlayaraq tədbirin əhəmiyyəti barədə məlumat verib, Nizami irsinin öyrənilməsi və təbliği, dünya ictimaiyyətinə tanıdılması sahəsində aparılan işlərdən söz açıb.***

Tədbirdə Kimya fakültəsinin I kurs tələbələri - Cahan İsmayılova, Nigar İlyasova, Əzizə Fərəcova, Nuray Əliyeva, Gülxar Xəlilova, Aysun Məlikova, Ariza Məmmədova, Nərmin Babayeva, Aysel Vəliyeva, Pərvanə Quliyeva, Türkan Mahmudova, Zəkiyyə Məmmədova, Nəzrin Nəzirova və Cahan İsmayılova Nizami Gəncəvi yaradıcılığı haqqında çıxış ediblər.

Tədbirdə dahi şairin şeirləri oxunub, həyat yolu barədə məlumat verilib. Sonra Zəkiyyə Məmmədovanın Nizami Gəncəvi yaradıcılığı haqqında hazırladığı videoçarx nümayiş olunub.

Tədbirdə uşaq hekayələri yazarı Çinarə Köçərli, "Məktəb guşəsi" jurnalının və saytının baş redaktoru Məzahir Məmmədli və BDU-nun Filologiya fakültəsinin müəllimi Ramil Bayramov mövzu haqqında çıxış ediblər. Çıxış edənlər Nizami irsinin gənc nəslə aşılanmasının vacibliyini vurğulayaraq bu nəhəng söz ustadının zəngin irsinin əsrlərdən bəri Şərqin misilsiz mədəni sərvətlər xəzinəsində özünəməxsus yerini qoruyub saxladığını diqqətə çatdırıblar.

## Nizami Gəncəvinin 880 illiyinə həsr olunmuş sərgiyə hədiyyə

BDU-nun Elmi Kitabxanasında ölkə başçısı tərəfindən 2021-ci ilin "Nizami Gəncəvi İli" elan edilməsi ilə əlaqədar "Nizami Gəncəvi-880" adlı kitab sərgisi təşkil edilib. Sərgidə Nizami Gəncəvinin Şərq miniatür sənətinin inkişafına təkan verən, dünyanın bir çox kitabxana və muzeylərini bəzəyən əsərləri nümayiş olunur. Görkəmli mütəfəkkirin anadan olmasının ildönümünə həsr edilmiş sərgiyə Əsgər Sərkaroğlunun qızı Fəzilə Əsgərova tərəfindən "Azərbaycanın peyğəmbərləşən mütəfəkkir şairi" adlı kitabı hədiyyə olunub. Əsgər Sərkaroğlu (1937-2016) hələ tələbə illərindən başlayaraq Nizami Gəncəvinin əsərlərini dünya kitabxanalarında və xarici mənbələrdə tədqiq edərək öyrənmiş və tədqiqatın nəticələrini kitabında əks etdirmişdir.

## Tarix fakültəsində Tarix Dostiyev ustad dərsi keçib

***Tarix fakültəsində Arxeologiya və etnoqrafiya kafedrasının dosent əvəzi, tarix elmləri doktoru Tarix Dostiyev "İslam arxeologiyası" mövzusunda ustad dərsi keçib.*** Ustad dərsində fakültənin əməkdaşları, doktorant və magistrantları, eləcə də Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşları - Elmi fond və ekspozisiya şöbəsinin müdiri Fərhad Quliyev və İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Pərviz Qasımov iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Tarix fakültəsinin elmi işlər üzrə dekan müavini dosent Kəmalə Nəcəfova fakültədə elmi seminar və ustad dərslərinin mütəmadi olaraq keçirildiyi haqda məlumat verib, belə tədbirlərin elmin populyarlaşdırılmasındakı əhəmiyyətindən bəhs edib.

T.Dostiyev məruzədə islam arxeologiyasının predmeti və obyekti, coğrafiyası, biliklər sistemində yeri, orta əsr müsəlman cəmiyyətinin və İslam sivilizasiyasının öyrənilməsində rolu və əhəmiyyəti haqqında geniş məruzə ilə çıxış edib. Multikultural dəyərlərin və tolerantlığın mövcudluğunu çoxsaylı faktiki materiallarla sənədləşdirən İslam arxeologiyasının dini ekstremizmi və qarşıdurmanı rədd etməsi, mədəniyyətlərin dialoquna və konfessiyalararası qarşılıqlı anlaşmanın möhkəmlənməsinə müsbət təsir göstərməsi barədə müqayisələr aparıb, müsəlman ölkələrinin tarixinin, mədəniyyətinin, iqtisadiyyatının, məişətinin öyrənilməsi üçün perspektivlərin olduğuna diqqət çəkib.

Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kafedrasının müdiri, dosent Azad Rzayev, Azərbaycan tarixi (Təbiət fakültələr üzrə) kafedrasının müdiri, dosent Mehman Abdullayev, Arxeologiya və etnoqrafiya kafedrasının müdiri, dosent Kərəm Məmmədov orta əsr islam abidələrinin öyrənilməsi, Bibliya arxeologiyasının tədqiqatları ilə İncildəki məlumatların uyğunluğu, bərpa işlərindən sonra Qarabağda arxeoloji irsin qorunması və mədəniyyətimizin, islam sivilizasiyasının əsas beşiyi kimi maddi-mənəvi dəyərlərimizin qorunması üçün muzeylərin açılmasının labüdlüyü haqqında fikirlərini bölüşüblər.

Sonda iştirakçıların sualları cavablandırılıb.

## "Ekoloji terror - Qarabağın təbiəti" adlı maarifləndirici tədbir

***Ekologiya və torpaqşünaslıq fakültəsində Tələbə Gənclər Təşkilatının (TGT) təşkilatçılığı ilə "Ekoloji terror - Qarabağın təbiəti" adlı maarifləndirici onlayn tədbir keçirilib.*** Ekologiya və torpaqşünaslıq fakültəsinin TGT sədri Nigar Muxtarzadə tədbiri giriş sözü ilə açaraq ermənilərin Qarabağda həyata keçirdiyi ekoloji terrorun fəsadları və bu istiqamətdə azad edilmiş ərazilərdə görüləcək işlər barəsində danışıb. Bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qeyd etdiyi kimi, Ermənistan faktiki olaraq Azərbaycana qarşı ekoloji terror törədib. Biz o torpaqları yenidən həyata qaytarmalıyıq. Ölkəmizin ən gözəl və bərəkətli regionlarından biri Qarabağın perspektivləri Azərbaycanın davamlı inkişafı üçün çox vacib olacaq. Regionun bərpası ilə bağlı bizi çox böyük işlər gözləyir.

# BDU-da "Azərbaycan dilinin qorunmasında medianın rolu və vəzifələri" respublika elmi konfransı keçirilib

***Aprelin 23-də Jurnalistika fakültəsinin təşkilatçılığı ilə "Azərbaycan dilinin qorunmasında medianın rolu və vəzifələri" mövzusunda Respublika onlayn elmi konfransı keçirilib. Konfransda professor-müəllim heyəti, doktorantlar və magistrantlar, respublikanın tanınmış media rəhbərləri iştirak ediblər.***

BDU-nun sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Əliş Ağamirzəyev çıxış edərək müstəqillik dövründə ana dilimizin yeni mərhələsinə qədəm qoyduğunu bildirmişdir. Qeyd etmişdir ki, milli dövlətçiliyin başlıca rəmzlərindən biri kimi sözün həqiqi mənasında dövlət dili statusu qazanmışdır. Bu siyasətin əsası hələ ötən əsrin 60-cı illərindən qoyulmuşdur. Ulu Öndər Heydər Əliyevin Bakı Dövlət Universitetinin 50 illik yu-



bileyində Azərbaycan dilində çıxışı ana dilimizin dövlət əhəmiyyətli tədbirlərinə yol açmağı və kürsü dili səviyyəsinə qalxması ilə nəticələnmişdir. Ulu Öndər Heydər Əliyev dövlət dili ilə bağlı bir sıra mühüm fərman və sərəncamları dil siyasətinə mühüm töhfə vermişdir. Ə.Ağamirzəyev bildirmişdir ki, dövlətimizin dil siyasəti bü gün də uğurla davam etdirilir. Ölkə başçısının "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" 2018-ci il 1 noyabr tarixli Fərmanı dövlət dili istiqamətində ardıcıl olaraq aparılan məqsədyönlü siyasətin məntiqi davamı, dilimizə dövlət səviyyəsində göstərilən qayğının daha bir nümunəsidir.

BDU-da Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi məqsədilə Tədbirlər Planı hazırlandığını və bu istiqamətdə tədbirlər görüldüyünü diqqətə çatdırmışdır.

Konfransda Multimedia və elektron kommunikasiya kafedrasının professoru Qulu Məhərrəmli, "525-ci qəzet" in baş redaktoru Rəşad Məcid, Mətbuat Şurasının sədr müavini Müşfiq Ələsgərli, "Xalq" qəzetinin əməkdaşı Namiq Məmmədov, Yeni media və kommunikasiya nəzəriyyəsi kafedrasının müdiri Cahangir Məmmədli, Multimedia və elektron kommunikasiya kafedrasının müdiri Allahverdi Məmmədli, Beynəlxalq jurnalistika və informasiya siyasəti kafedrasının müdiri Həmid Vəliyev və professor Nəsir Əhmədli çıxış edərək ana dilimizin təmizliyinin qorunmasında medianın rolu barədə geniş məlumat vermiş, kütləvi informasiya vasitələrinin qarşısında duran vəzifələr haqqında bəhs etmişlər.

# Bədii Qiraət Müsabiqəsinə yekun vurulub

***Kitabxanaçılıq-informasiya fakültəsinin və "Aşıq Şəmşir" Mədəniyyət Ocağı İctimai Birliyinin birgə təşkilatçılığı ilə Nizami Gəncəvinin əsərlərindən ibarət bədii qiraət müsabiqəsinin yekunlarına həsr edilmiş onlayn tədbir keçirilib.*** Professor-müəllim heyətinin, tələbələrin və qonaqların iştirakı ilə keçirilən tədbirdə giriş sözü ilə çıxış edən BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamına əsasən 2021-ci ilin "Nizami Gəncəvi İli" elan edilməsinin dahi şairin irsinə müxtəlif aspektlərdən yanaşılması baxımından böyük imkanlar yaratdığını bildirib, gənclər arasında bu cür müsabiqələrin təşkilinin xüsusi əhəmiyyətindən bəhs edib və müsabiqə qaliblərinə öncədən təbriklərini çatdırıb.

Sonra bədii qiraət müsabiqəsinin final mərhələsinə vəsiqə qazanmış 10 iştirakçının ifasında Nizami yaradıcılığından nümunələr dinlənilib. Müsabiqənin münsiflər heyətinin üzvləri - Azərbaycan Yazıçılar Birliyi İdarə Heyətinin üzvü, ədəbiyyatşünas Əsəd Cahangir, BDU-nun kafedra müdiri Knyaz Aslan, Şərqşünaslıq fakültəsinin dekan müavini Nigar İsmayılzadə və Filologiya fakültəsinin dekan müavini Anar Fərəcov ifalara münasibətlərini bildirib, iştirakçıları müvafiq ballarla qiymətləndiriblər. Müsabiqənin yekunlarına əsasən Kitabxanaçılıq-informasiya fakültəsinin tələbələri Nərgiz Həşimzadə 1-ci, Nilufər Qəhrəmanova 2-ci, Aysel Bayramova isə 3-cü yerə layiq görülüb.

Sonda çıxış edən "Aşıq Şəmşir" Mədəniyyət Ocağı İctimai Birliyinin sədr müavini Həbib Misirov iştirakçıları İctimai Birliyin sədri Qənbər Şəmşiroğlunun adından salamlayıb, bildirib ki, 2021-ci ilin "Nizami Gəncəvi İli" elan edilməsi ədəbiyyatımıza, milli-mənəvi dəyərlərimizə verilən böyük töhfədir. O, Bakı Dövlət Universitetinin "Nizami Gəncəvi İli" ilə bağlı tədbirlərdə xüsusilə fərqləndiyini, ali təhsil ocağının təşkilatçılığı ilə bu mövzuda konfransların, elmi seminarların və kütləvi tədbirlərin keçirilməsinin ictimaiyyət tərəfindən yüksək dəyərləndirildiyini diqqətə çatdırıb, gənclərin hərtərəfli inkişafı üçün yaradılan şəraitə görə Universitet rəhbərliyinə minnətdarlığını bildirib. Həbib Misirov qeyd edib ki, qaliblərə "Aşıq Şəmşir" Mədəniyyət Ocağı İctimai Birliyi tərəfindən pul mükafatı, diplom və digər hədiyyələr təqdim olunacaqdır. Tədbirdə eyni zamanda AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun şöbə müdiri, professor Almaz Ülvinin "Nizami və özbək ədəbiyyatı" mövzusunda məruzəsi dinlənilib, Nizami yaradıcılığı haqqında tələbələrin hazırladığı videoçarx nümayiş etdirilib.

# Azərbaycan Dövlət Neft Akademiyasında törədilmiş faciədən 12 il ötür

***30 aprel Azərbaycan Dövlət Neft Akademiyasında (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) törədilən terror aktından 12 il ötür.*** Kütləvi qətllə nəticələnən faciə 2009-cu il aprelin 30-da səhər saat 9:30 radələrində Azərbaycan Dövlət Neft Akademiyasının (ADNA) Bakı şəhəri Dilarə Əliyeva küçəsində Qaz-neft mədən və Neft mexanikası fakültələrinin yerləşdiyi ikinci korpusunda baş verib. Universitetin binasına daxil olan Gürcüstan vətəndaşı Qədirov Fərda Əsəd oğlu inzibati binanın birinci mərtəbəsindən altıncı mərtəbəsinədək qarşısına çıxan hər kəsə atəş açıb, nəticədə 12 nəfər ölüb, 13 nəfər isə yaralanıb. Gülləyə tuş gələnlər arasında ADNA-nın professorları, müəllimləri, texniki işçiləri və tələbələri olublar. Hadisə yerinə dərhal polisin xüsusi təyinatlı nizami hissəsinin, ərazi polis və prokurorluq orqanlarının məsul əməkdaşları gəliblər. Hadisəni törədən şəxs binanın sonuncu mərtəbəsin-



də əlindəki silahla özünü vuraraq intihar edib.

Cinayət işi üzrə təqsirli bilinən dörd nəfər də layiqli cəzalarını alıblar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 30-da ADNA-da baş vermiş faciəli hadisə nəticəsində həlak olanların ailələrinə və xəsarət alanlara maddi yardım göstərilməsi haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən, həlak olanların ailələrinin hər birinə 30 min, ağır xəsarət alanların hər birinə isə 15 min manat məbləğində birdəfəlik maddi yardım edilib.

***2017-ci ilin fevralında universitetdə terror aktının qurbanlarının xatirəsinə memorial quraşdırılıb.***

12 il əvvəl baş vermiş dəhşətli terror hadisəsi hər kəsin qəlbində dərin iz buraxıb.

Allah rəhmət eləsin!

# "Reper laylanmalarının diferensial-həndəsi strukturları"

***Mexanika-riyaziyyat fakültəsində "Reper laylanmalarının diferensial-həndəsi strukturları" mövzusunda onlayn elmi seminar keçirilib.***

Seminar iştirakçılarını salamlayan Mexanika-riyaziyyat fakültəsinin dekanı Nizaməddin İsgəndərov müasir diferensial həndəsə elminin diferensial tənliklər nəzəriyyəsində, tərs məsələlərin öyrənilməsində əhəmiyyətli dərəcədə mühüm rola malik olduğunu nəzərə çatdırıb.

Daha sonra "Cəbr və həndəsə" kafedrasının dosenti, fizika-riyaziyyat elmləri namizədi Habil Fəttayev məruzə edib. Elmi seminar mövzusu ətrafında professorlar - Əli Əhmədov, Nizaməddin İsgəndərov, Ziyatxan Əliyev, Arif Səlimov, Hamlet Quliyev, dosent Rəşid Əliyev və başqalarının sual və çıxışları dinlənilib.

# Fizika fakültəsində növbəti elmi seminar

***Seminarda Bərk cisimlər fizikası kafedrasının professoru Tariyel İsmayılov məruzə ilə çıxış edib.*** Məruzədə son onillikdə nanotexnologiyalar sahəsindəki inkişaf nəticəsində daha kiçik ölçülü, sürətli və etibarlı cihaz və qurğuların yaradıldığı, bunun əsasında aşağıölçülü sistemlər fizikasının ən fundamental effekti olan ölçü kvantlanması adlanan effektin durduğu qeyd edilib. Həmçinin, nümunənin kvantlanma istiqamətindəki ölçüsü kiçildikcə diskretliyin kəskin artdığı, topologiyanın belə dəyişməsi yarımkeçirici əsaslı optik detektorların, lazerlərin və müxtəlif tezliklər oblastında işləyən digər optoelektronika cihazlarının parametrlərinin yaxşılaşdırılmasına imkan yaratdığı da bildirilib.

T.İsmayılov bu istiqamətdə apardığı nəzəri tədqiqatların nəticələri barədə məlumat verərək bildirib ki, alınan nəticə kvant məftillərinə və kvant nöqtələrinə də tətbiq oluna bilər.

# 23 aprel - Beynəlxalq Kitab və Müəlliflik Hüququ Günüdür






*23 aprel tarixi 1995-ci ildən UNESCO-nun çağırışı ilə 100-dən çox ölkədə milyonlarla insanın iştirakı ilə Beynəlxalq Kitab və Müəlliflik Hüququ Günü kimi təntənəli şəkildə qeyd olunur.* Simvolik olaraq dünyanın məşhur yazarlarının doğum və vəfat tarixlərini ifadə edən həmin günün kitab bayramı kimi qeyd olunmasının məqsədi dünya miqyasında kitabın, eləcə də mütaliə vərdişlərinin əhəmiyyətini vurğulamaq, insanları kitab oxumağa sövq etməkdir. Eyni zamanda yayım mədəniyyətini, yayım hüququnu, düşüncə və ifadə azadlığını təşviq etmək də bu tarixi günün atributlarından hesab olunur. Beynəlxalq Kitab və Müəlliflik Hüququ Günü dünyanın müxtəlif mədəniyyətlərə malik olan xalqları arasında mədəni mübadilənin, o cümlədən qarşılıqlı anlaşma və əməkdaşlığın təmin olunması, tolerantlıq mühitinin formalaşdırılması, eləcə də bütün bunların fonunda dünyada sülhə, əmin-amanlığa xidmət edən sosial bir layihə kimi də mühüm əhəmiyyət daşıyır. Bu günün qeyd edilməsi kitab mədəniyyətinin, oxu vərdişlərinin təbliği baxımından olduqca aktualdır.

İnsan və vətəndaş hüquqlarının ən ali səviyyədə təmin edilməsi sahəsində dünyaya örnək olan Azərbaycanda bu sahə də dövlətin xüsusi diqqət və qaygısı ilə əhatə olunmuşdur. Ulu Öndərimiz Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra Azərbaycanda düşüncə və ifadə azadlığı dövlət səviyyəsində təmin olunmuş, ölkədə zəngin tolerantlıq mühiti formalaşmışdır. 1995-ci ildən Ümumdünya Əqli Mülkiyyət Təşkilatına üzv olan Azərbaycan eyni zamanda müəlliflik hüququ və əlaqəli hüquqlar sahəsində beynəlxalq konvensiya və müqavilələrə də qoşulmuşdur. Həmçinin ölkəmizdə bu sahənin hüquqi bazası da formalaşdırılmış, məhz Ulu Öndər Heydər Əliyev tərəfindən "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında", "Kitabxana işi haqqında", "Nəşriyyat işi haqqında" Azərbaycan Respublikasının qanunları imzalanmışdır. Bu sahədə dövlət siyasətini tənzimləmək məqsədilə yaradılan Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin də ölkəmizdə müəlliflik hüquqlarının qorunması sahəsində müstəsna xidmətləri vardır. Aparılan ardıcıl və məqsədyönlü dövlət siyasətinin nəticəsidir ki, bu gün ölkəmizdə kitab mədəniyyəti ən yüksək səviyyədə, ən müxtəlif forumlarda, sərgi və yarmarkalarda təbliğ edilir, kitabxana şəbəkələri gündən-günə inkişaf edərək oxuculara innovativ iş üsulları ilə xidmət göstərir, müasir tipli nəşriyyatlarımız nəfis tərtibatlı və yüksək məzmunlu kitablar çap edərək oxucu tələbatını ödəyirlər.

*Ulu Öndər Heydər Əliyevin siyasətini bütün sahələrdə uğurla davam etdirən möhtərəm Prezidentimiz İlham Əliyev kitabxana-informasiya fəaliyyətinin, nəşriyyat sektorunun inkişafı üçün əməli addımlar atır, bu sahənin tərəqqisinə öz töhfələrini verir.* Hörmətli Prezidentimizin 2004-cü ildə imzaladığı "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" Sərəncamı Azərbaycanda kitabxana və nəşriyyat işinin inkişafında xüsusi əhəmiyyətə malikdir. Ölkə başçısı tərəfindən 2008-ci ildə imzalanmış "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nı isə bu sahənin inkişafı üçün yol xəritəsi hesab etmək olar. Bu sənədin qayəsini müasir dövrün çağırışlarına cavab verən kitabxana-informasiya şəbəkəsinin yaradılması, informasiya cəmiyyəti quruculuğu şəraitində beynəlxalq standartların tətbiqi, kitabxana informasiya resurslarının dünya informasiya məkanına inteqrasiyasının təmin edilməsi, elektron informasiya fondlarının formalaşdırılması, virtual kitabxanaların inkişaf etdirilməsi, ölkədə fəaliyyət göstərən kitabxanaların modernləşdirilməsi kimi məsələlər təşkil edir.

*Ölkəmizdə kitab mədəniyyətinin inkişafında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın da mühüm xidmətləri qeyd olunmalıdır.* Azərbaycan mədəniyyətinin dünyada tanıdılmasında məhz Heydər Əliyev Fondunun və onun rəhbəri Mehriban Əliyevanın nəşr etdirdiyi kitablar mühüm əhəmiyyət kəsb edir. Həmin kitablar xarici ölkələrdə maraqla qarşılanır, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında əvəzsiz rol oynayır. Bu kitablar nüfuzlu beynəlxalq kitab sərgilərində nümayiş etdirilir, eləcə də məşhur kitabxanalara hədiyyə olunur.

*Ölkəmizdə kitabxana-informasiya fəaliyyətinin yenidən, dünya standartları səviyyəsində, yeni əsrin çağırışlarına uyğun şəkildə qurulması prosesinə başlanılıb.* Möhtərəm Prezidentimizin 15 yanvar 2019-cu il tarixində imzaladığı "Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin strukturunun və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" fərmanına əsasən Azərbaycanda yeni, mütərəqqi və ölkənin bütün ərazisini əhatə edəcək kitabxana siseminin yaradılması dövlətimizin qarşısında duran ən mühüm vəzifələrdən biridir. Bütün bu tədbirlər, əməli addımlar Azərbaycanda kitabxana-informasiya fəaliyyətinin, nəşriyyat sektorunun inkişafına böyük töhfələr verəcəkdir. Dövlət səviyyəsində kitab mədəniyyətinə, kitabçılıq işinə göstərilən dəstək bu sahənin mütəxəssislərinin qarşısına mühüm tapşırıqlar qoyur. Bu gün müasir standartlar əsasında, yeni əsrin çağırışları səviyyəsinə uyğun şəkildə bu sahədə elmi-tədqiqat işləri aparmaq qarşımızda prioritet vəzifə kimi dayanır.

***Elşəndar Cabbarlı,***
*Kitabşünaslıq və nəşriyyat işi kafedrasının dosenti*

# İşğaldan azad olunmuş ərazilərin Azərbaycan iqtisadiyyatına töhfə verəcəyi gün getdikcə yaxınlaşır

*Vətən müharibəsindən sonra işğaldan azad olunmuş ərazilərə səfər edən yerli və xarici nümayəndələr erməni barbarlarının bu ərazidə törətdikləri vəhşilikdən dəhşətə gəlmiş, buranı ABŞ-ın atom silahının zərbəsinə məruz qalmış Yaponiyanın Xirosima və Naqasaki şəhərlərinə bənzədiblər.* O yerləri görənlər dağıdılmış şəhər və kəndlərin yenidən qurulması, infrastrukturun bərpa olunması üçün illərlə vaxt tələb olunacağı haqqında pessimist fikirlər irəli sürürdülər. Amma Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Birinci xanım Mehriban Əliyevanın Cəbrayıl və Zəngilan rayonlarına son səfəri zamanı ortaya çıxan görüntülər bədxahlarımızın bu sahədə də verdiyi proqnozları alt-üst etdi.

İşğaldan azad olunan torpaqlarımızın normal və əvvəlkindən daha artıq vəziyyətə gətiriləcəyi gün heç də uzaqda deyil. Yaxın 1-2 il müddətində Azərbaycan iqtisadiyyatında bu ərazilərin çəkisi özünəməxsus yer tutacaq. Bu inam əldə olunan nailiyyətlərdə və ölkə rəhbəri İlham Əliyevin Cəbrayıl və Zəngilan rayonlarına səfəri zamanı verdiyi tövsiyələrdə özünü aydın şəkildə göstərir. Nədir bu tövsiyələr?

*Dövlətimizin başçısının Cəbrayıl rayonunun girişində "Cəbrayıla xoş gəlmişsiniz!" sözləri yazılmış lövhənin qarşısında söylədiyi fikirlərə diqqət yetirək:*

"Vaxtilə Cəbrayıl rayonunun girişində ucaldılmış lövhəni biz indi yenidən qurduq və eyni formada, eyni dizaynla. Biz "Cəbrayıla xoş gəlmişsiniz!" lövhəsini bərpa etdik. Sovet vaxtında bu abidə, - əgər belə demək mümkündürsə, - qoyulmuşdur, ucaldılmışdır və işğal dövründə tamamilə sökülmüş, paslanmışdır. Bunun paslanmış görüntüləri artıq mətbuatda da var. Ona görə tarixi ədaləti bərpa edərək, Cəbrayıl rayonunun girişində yerləşən bu "Xoş gəlmişsiniz!" lövhəsini, abidəni biz yenidən bərpa etdik. Azad edilmiş bütün torpaqları bərpa edəcəyik, bütün şəhərləri, kəndləri bərpa edəcəyik".

Əminik ki, Azərbaycan Prezidentinin dilindən Cəbrayıl üçün deyilən bu kəlmələr işğaldan azad edilən bütün rayonlarımız üçün şamil olunacaq. Biz növbə ilə digər rayonlarımızın giriş qapısında əvvəlki kimi və ondan daha yaraşıqlı lövhələr ucaldacağıq. Azərbaycan xalqının ölkə rəhbərinin verdiyi bu vədlərin yerinə yetirəcəyinə heç bir şübhəsi yoxdur. Çünki ölkə rəhbəri İlham Əliyev Azərbaycanda Prezident kimi fəaliyyətə başladığı zaman xalqımıza erməni işğalında olan torpaqlarımızın azad olunması haqqında verdiyi sözü ləyaqətlə yerinə yetirdi. Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı, Prezident İlham Əliyevin qətiyyəti və rəşadətli Ordumuzun şücaəti sayəsində torpaqlarımız erməni işğalından azad olundu və mənfur qonşularımıza tarix boyu unutmayacaqları bir dərs verildi.

İşğaldan azad olunmuş torpaqlarımızda hazırda quruculuq işləri aparılır. İnanırıq ki, xalq və dövlət birliyi sayəsində quruculuq işləri də uğurla başa çatdırılacaq.

Cəbrayıl rayonunda Dövlət Sərhəd Xidmətinin hərbi hissəsinin açılışı xüsusi əlamətdar oldu və bu hadisə 44 günlük Vətən müharibəsində Qələbə fonunda olduqca diqqətəlayiqdir. Bu, həm də Azərbaycanın dövlət atributlarının qorunması istiqamətində hansı addımların atıldığının bariz nümunəsidir. *Hərbi hissənin açılışında burada yaradılan şəraitlə tanışlıqdan sonra Prezident İlham Əliyev Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçuları ilə görüşdə çıxış edərək deyib:*

"Əziz sərhədçilər, bu gün ölkəmizin həyatında əlamətdar bir gündür. Azərbaycan-İran sərhədində Dövlət Sərhəd Xidmətinin yeni hərbi hissəsi açılır. Bu açılışda mən iştirak edirəm və bu bir daha Sərhəd Xidmətinin işinə verdiyimiz diqqətin təzahürüdür.

Vətən müharibəsi dövründə Azərbaycan-İran sərhədi tam bərpa edilib, işğal altında olmuş 132 kilometr sərhəd bərpa edilibdir. Müharibədən dərhal sonra sərhəd boyunca bütün lazımi istehkam, mühafizə işləri görülməyə başlamışdır. Bu hərbi hissənin fəaliyyətə başlaması bunun bariz nümunəsidir. Bütün sərhəd boyunca - həm Azərbaycan-İran, həm Azərbaycan-Ermənistan sərhədləri boyunca lazımi işlər aparılır.

Azərbaycan-İran sərhədi dostluq sərhədidir. Bu sərhədin qorunması Azərbaycan-İran əlaqələrinin inkişafı üçün də çox böyük önəm daşıyır. Bizim İran İslam Respublikası ilə digər istiqamətlərdə sərhədimiz var və bu, sözün əsl mənasında, dostluq, əməkdaşlıq sərhədidir. Hər iki ölkənin sərhəddən keçən vətəndaşları bundan faydalanırlar. Eyni zamanda, ildən-ilə artan yüklərin həcmi Azərbaycan-İran əlaqələrinin inkişafından xəbər verir".

İstənilən dövlətin apardığı ədalətli və uğurlu müharibədən sonra əldə olunmuş nəticələrdən məharətlə istifadə etmək kimi vəzifələr də dayanır. Bu gün Azərbaycan məhz belə vəzifələri yerinə yetirmək uğrunda yeni mübarizəyə başlayıb. Bu mübarizə qarşımıza işğaldan azad olunmuş əraziləri qısa müddətdə Azərbaycan iqtisadiyyatına qoşmaq, torpağımızın bir parçası olan Naxçıvanımızla yerüstü dəhlizi açmaq kimi vəzifələr qoyur. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın regiona hər səfəri bu torpaqların yenidən canlanacağı günü bizə daha da yaxınlaşdırır".

***Əlimusa İbrahimov,***
*Beynəlxalq münasibətlər kafedrasının baş müəllimi*

*AZƏRTAC*

# BDU-da ağacəkmə aksiyası keçirilib

## Aprelin 2-də Bakı Dövlət Universitetində Tələbə Həmkarlar Təşkilatının təşkilatçılığı ilə 22 Aprel - Beynəlxalq Yer Kürəsi Günü ilə əlaqədar ağacəkmə aksiyası keçirilib





***Bakı Dövlət Universitetində Tələbə Həmkarlar Təşkilatının təşkilatçılığı ilə 22 Aprel - Beynəlxalq Yer Kürəsi Günü ilə əlaqədar ağacəkmə aksiyası keçirilib. Xüsusi karantin rejiminin tələblərinə ciddi riayət olunmaqla tələbələr Universitetin və Tələbə Evinin həyətində ağac və güllər əkiblər. BDU-nun rektoru Elçin Babayev tələbələrlə birgə aksiyada iştirak edib. Aksiyada 100-dən artıq zeytun və şam ağacları, 300-dən çox təbii gül əkilib.***





Aksiyanın məqsədi ictimaiyyətin, eləcə də tələbələrin diqqətini yaşıllıqların artırılmasına, ekoloji tarazlığın bərpasına, ətraf mühitin qorunmasına yardımçı olmağa, atmosferin oksigenlə zənginləşdirilməsinə yönəltməkdir.

Qeyd edək ki, Yer Kürəsi Günü ilk dəfə 1970-ci ildə qeyd olunub. İlk dəfə olaraq 20 milyona yaxın insan ətraf mühitin qorunmasına diqqəti artırmaq üçün müxtəlif tədbirlər təşkil edərək öz fikirlərini ifadə edib. 2009-cu ildə isə Birləşmiş Millətlər Təşkilatının Baş Məclisi tərəfindən qəbul olunmuş qətnaməyə əsasən, beynəlxalq Yer Kürəsi Günü hər il 22 aprel tarixində qeyd olunur.





**Buraxılışa məsul:**
Afaq Sadıqova

**Redaksiya heyəti:**
Əliş Ağamirzəyev
Vüqar Əliyev
Cahangir Məmmədli
Həmid Vəliyev
Allahverdi Məmmədli
Nəsir Əhmədli

**Dizayn - tərtibat:**
Aynur Qurbanqızı

Bakı Dövlət Universitetinin mətbəəsində çap olunmuşdur.

**Çapa imzalanıb:**
30.04.2021
**Tiraj:** 1000 nüsxə

Redaksiyanın mövqeyi ilə müəlliflərin mövqeyi üst-üstə düşməyə bilər.

Dərc olunan məqalələrin mətninə görə redaksiya məsuliyyət daşımır.